RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 15 (8331) ŞƏNBƏ, 25 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# İLHAM ƏLİYEV diplomatiyasının növbəti təntənəsi




## Azərbaycan Prezidenti Davosda dünyanın diqqətini bir daha ölkəmizə yönəltdi

Yanvarın 21-dən İsveçrənin Davos şəhərində öz işinə başlayan Dünya İqtisadi Forumu başa çatdı. “Birgə və davamlı dünyanın maraqlı tərəfləri” mövzusunda keçirilən 50-ci Forumda 117 ölkənin nümayəndələri, o cümlədən 53 ölkənin dövlət və hökumət başçıları iştirak etdilər. Həmçinin dünyanın hər yerindən 119 milyarderi bir araya gətirən forumda 400-dən çox açıq və qapalı iclas keçirildi.

2007-ci ildən bütün iclaslara dəvət edilən Prezident İlham Əliyev sayca 14-cü dəfə Davos Forumunda iştirak edərək bir daha Azərbaycan həqiqətlərini dünya liderlərinin diqqətinə çatdırdı. Dövlət və hökumət başçıları, şirkət rəhbərləri ilə keçirilən görüşlərdə Azərbaycanın xeyrinə mühüm razılaşmalar əldə edildi. Davos Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında niyyət protokolu imzalandı və bu sənədə əsasən qurumun ölkəmizdə afilə edilmiş regional mərkəzi yaradılacaq.

### Dünyanın nüfuzlu platformasında Azərbaycan həqiqətləri

Göründüyü kimi, Davos Forumu Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri və şirkətləri ilə daha yaxından əməkdaşlığına real zəmin yaradır. Cənab İlham Əliyev ölkədə həyata keçirilən mütərəqqi islahatları, Azərbaycanın Xəzər regionunda malik olduğu böyük tranzit imkanlarını, mövcud potensialını, respublikamızın həyata keçirdiyi strateji layihələri dünyaya təqdim edir. Əlbəttə ki, Prezidentin Davos Forumunda iştirakı, keçirdiyi görüşlərdə xarici şirkətlərin Azərbaycanla əməkdaşlığa dəvət edilməsi ölkəmizin iqtisadi inkişafına təkan verəcək.

Budəfəki forum çərçivəsində olduqca aktual məsələlər müzakirə olundu. Onlardan biri dünyanın ekoloji problemləri, dördüncü sənaye inqilabı ilə bağlı müzakirələr idi. Elə Davos Forumu ilə Azərbaycan arasında imzalanan sənəd də dördüncü sənaye inqilabının inkişafı istiqamətində birgə əməkdaşlığı şərtləndirir.

Son illərdə Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşmasındakı rolunu görən bir çox dövlətlər əlbəttə ki, ölkəmizlə əməkdaşlıqda çox maraqlıdırlar. Yeni Azərbaycan regionun əsas söz sahibi kimi bir çox Avropa dövlətinin maraq obyektinə çevrilib. Ölkəmizin beynəlxalq tranzit imkanları genişləndikcə isə bu əlaqələr daha da genişlənir.

Prezident İlham Əliyev də iştirak etdiyi bütün beynəlxalq toplantılarda Azərbaycanın real imkanlarını təqdim edir və bütün bunların son 16 ildə yaradıldığı hər kəsdə böyük maraq doğurur. Bu da Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların hər il artmasına səbəb olur.

### Qəribə suala maraqlı cavab

Yanvarın 22-də isə Prezident İlham Əliyevin Dünya İqtisadi Forumu çərçivəsində “Strateji baxış: Avrasiya” mövzusunda keçirilən panel iclasında iştirakı, Avrasiya məkanındakı mövcud durumla bağlı səsləndirdiyi fikirlər və moderatorun sualına diplomatik cavabı çoxlarının diqqətini bir daha Azərbaycana, Bakıya yönəltdi.

Panelin moderatorunun - “Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz - Moskvaya, yoxsa Pekinə?” sualına cavabında cənab İlham Əliyev qısa və konkret cavab verdi - Bakıya.

Bunun ardınca Prezident vurğuladı ki, Azərbaycan qonşularına qarşı mehriban siyasət yürüdür. Lakin milli maraqlar həmişə birinci yerdə olub.

Ardı 4-cü səh.

## Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri

### Davosda “Equinor” şirkətinin baş icraçı direktoru ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda “Equinor” şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə “Qarabağ” yatağı layihəsi müzakirə olundu. “Equinor” şirkətinin 1994-cü ildən Azərbaycanda olduğunu deyən dövlətimizin başçısı ölkəmizdə onun fəaliyyətinə çox böyük əhəmiyyət verildiyini qeyd etdi.

Söhbət zamanı alternativ enerji mənbələri üzrə layihələr barədə də fikir mübadiləsi aparıldı.

### Azərbaycan şirkətləri İsveçrədə aktiv fəaliyyət göstərir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda İsveçrənin Montrö şəhərinin meri, Azərbaycan-İsveçrə Dostluq Qrupunun həmsədri Loran Verli ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli əlaqələrin yüksələn xətlə inkişaf etdiyi bildirildi. İki ay əvvəl İsveçrə parlamentində Azərbaycan ilə dostluq qrupunun həmsədri təyin olunduğunu deyən Loran Verli bu qrupa rəhbərlik etməkdən məmnunluğunu bildirdi. O, fəaliyyəti dövründə Azərbaycan ilə İsveçrə, o cümlədən iki ölkənin qanunverici orqanları arasında əlaqələrin daha da sürətlə inkişaf etməsi üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.

Söhbət zamanı Azərbaycan ilə İsveçrənin şəhərləri arasında əməkdaşlıq münasibətlərinin qurulması ilə bağlı fikir mübadiləsi aparıldı, bir müddət əvvəl Montrö şəhəri ilə Bakının Səbail rayonunun qardaşlaşdığı bildirildi.

Görüşdə Azərbaycan şirkətlərinin İsveçrədə aktiv fəaliyyəti qeyd edildi və iki ölkənin şirkətləri arasında münasibətlərin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulandı.

## Səsimiz nüfuzlu beynəlxalq tribunadan eşidilir

### Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsindən 19 il ötür

19 il əvvəl, 2001-ci ilin yanvar ayında Azərbaycan Avropa Şurasına üzv qəbul edildi və bu mötəbər təşkilatın qarşısında üçrəngli bayrağımız ucaldıldı. Bununla da xarici siyasətdə qarşıya qoyduğu əsas prioritetlərdən daha birini uğurla gerçəkləşdirən müstəqil respublikamız milli maraq və mənafelərinin müdafiəsi, habelə erməni lobbisinə qarşı səmərəli əks ideoloji-siyasi təbliğatı gücləndirmək üçün əlverişli tribuna qazandı.

Ulu Öndərin rəhbərliyi altında 1993-cü ilin ortalarından ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının təmin edilməsi istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər Azərbaycanın qeyri-sabit dövlət imicini aradan qaldırdı, regionun siyasi simasını və taleyini müəyyənləşdirən mühüm demokratik institut və təşkilatlarla əməkdaşlığına təkan verdi. Nüfuzlu beynəlxalq təşkilat olan Avropa Şurası ilə əməkdaşlıq da həmin dövrdən zəruri məsələ kimi gündəmə gəldi, yenicə müstəqillik qazanmış respublikamız öz maraqlarını qorumaq, ölkə həqiqətlərini dünyaya çatdırmaq, demokratikləşmə prosesini sürətləndirmək məqsədilə təşkilata üzvlüyü vacib saydı.

Xüsusilə qeyd etmək yerinə düşər ki, 1993-cü ildən etibarən ölkədə siyasi sabitliyin təmin olunması hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu istiqamətində real addımların həyata keçirilməsinə, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılmasına imkan yaratdı. 1995-ci ildə Ulu Öndərin rəhbərliyi altında hazırlanaraq qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkədə vətəndaş cəmiyyəti quruculuğunun hüquqi əsaslarını yaratdı. Ölkədə çoxpartiyalılıq əsasında demokratik parlament seçildi, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan və sair azadlıqlar bərqərar olundu.

Əsas Qanunun qəbulundan sonra ölkədə həm də hüquqi islahatlara başlandı və keyfiyyətcə yeni, dövrün tələblərinə cavab verən bir sıra qanunvericilik aktları hazırlandı.

Ardı 4-cü səh.




◆ İlin uğurlu yekunları

## Zəhmətin şirin bəhrəsi

2019-cu ildə ölkəmizdə həyata keçirilən irimiqyaslı islahatlar, iqtisadiyyata cəlb edilən investisiyaların həcminin artırılması inkişafı bir qədər də sürətləndirmişdir. Bu inkişafı Goranboy rayonunun timsalında da aydın görmək olar.

Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Keçən il taxılçılar 8764 hektar sahədə buğda, 13750 hektar sahədə arpa, 431 hektar sahədə qarğıdalı əkib-becərmiş, 66412 ton məhsul təhvil vermişlər. Kənd təsərrüfatının digər sahələrində də yüksək göstəricilərə nail olunmuşdur. Belə ki, 4975 ton kartof, 9634,3 ton tərəvəz, 2825 tondan çox şəkər çuğunduru, 12684 kiloqram tütün istehsal edilmişdir.

Keçən il pambıq yığımında kombaynlara daha çox üstünlük verilmişdir. Pambıq istehsalında əldə olunan nailiyyətlərdə MKT-İK MMC-nin Goranboy filialının, Goran-Cotton ASC-nin və “Azərpambıq” MMC-nin Goranboy pambıq istehsalı və qəbulu məntəqəsinin işçilərinin də payı az olmamışdır.

Keçən ili heyvandarlar da uğurla başa vurmuşlar. Göstərilən diqqət və qayğı nəticəsində nəzərdə tutulduğundan çox ət və süd istehsal edilmişdir. Qoyunçuluqla məşğul olan hüquqi və fiziki şəxslərin çətinlikləri aradan qaldırılmış, onlar istehsal etdikləri yunu “Azərxalça” ASC-nin Bərdə yun və təbii boyaq bitkilərinin tədarükü məntəqəsinə təhvil vermişlər.

Məlum olduğu kimi, bol su bol məhsul deməkdir. Bunu nəzərə alan rayon suvarma sistemləri idarəsinin kollektivi 25 min 638 hektar sahənin suvarılmasını təmin etmişdir. Mövcud suvarma suyunu əkin sahələrinə itkisiz çatdırmaq üçün arxlar təmizlənmiş, sel sularını ötürmək üçün nizamlama işləri görülmüşdür.

Abadlıq və quruculuq işləri davam etdirilmiş, rayon mərkəzindəki Etibar Namazoğlu, Əsgər Ağa Gorani, Nəsrəddin Əliyev, Üzeyir Hacıbəyli, Vidadi, Vaqif, Səməd Vurğun, Rövşən Mustafayev küçələrinə asfalt örtüyü salınmış, Heydər Əliyev parkında 5 min 200 kvadratmetr sahəyə tamet düzülmüş, 2 min 800 gül kolu əkilmiş, oturacaqlar qoyulmuşdur.

Ardı 6-cı səh.

# Nazirlər Kabinetində icbari sığorta sahəsində qarşıda duran vəzifələr müzakirə edilib

Yanvarın 24-də Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə müşavirə keçirilib.



AZƏRTAC xəbər verir ki, müşavirədə Prezident İlham Əliyevin icbari sığortanın tətbiqi ilə bağlı qarşıya qoyduğu vəzifələr müzakirə edilib.

Baş Nazir Əli Əsədov çıxış edərək bildirdi ki, Prezident İlham Əliyev 2020-ci ilin yanvarın 13-də keçirdiyi müşavirədə əmlakın sığortalanması ilə bağlı ciddi maarifləndirmə işlərinin aparılması və əmlakın sığortalanması məsələsinin müasir standartlara uyğunlaşdırılması ilə əlaqədar tapşırıq verib. Diqqətə çatdırıldı ki, maarifləndirmə ilə yanaşı, marketinq işləri də aparılmalı və vətəndaşların əmlakın sığortalanmasında maraqlı olmaları üçün müvafiq tədbirlər görülməlidir. Əmlakın sığortası vətəndaşların da mənafelərinə cavab verir. Vətəndaşlar daşınmaz əmlaklarını icbari qaydada sığortalamaqla fövqəladə hallarda riskləri minimuma endirmiş olurlar.

İcbari sığorta ilə əlaqədar qanunvericilik bazasının formalaşdırıldığını deyən Baş Nazir qeyd etdi ki, dövlət başçısı əmlakın sığortalanması işinin vətəndaşla sığorta şirkətlərinin qarşılıqlı maraqları çərçivəsində həyata keçirilməsinə üstünlük verir. Bu məsələdə də maarifləndirmə mühüm amildir.

Mərkəzi Bankın sədri Elman Rüstəmov "Azərbaycan sığorta bazarı: strateji baxış" adlı təqdimatla çıxış etdi. Sığortanın 3 əsas sosial-iqtisadi rolunun olduğunu deyən E.Rüstəmov bildirdi ki, buraya əhalinin və biznesin iqtisadi təhlükəsizliyi, əhalinin sosial müdafiəsinin təmin edilməsi və iqtisadiyyatın uzunmüddətli investisiya mənbələri ilə təmin olunması daxildir. Azərbaycanda müxtəlif fəaliyyət növlərinə dair sığorta haqqında qanunların, normativ-hüquqi aktların qəbul olunduğunu deyən Mərkəzi Bankın sədri bu sektorda qarşıda duran vəzifələri vurğuladı və təkliflərlə çıxış etdi.

İcbari Sığorta Bürosunun icraçı direktoru Rəşad Əhmədov qurum tərəfindən sığorta bazarında görülən işlər barədə məlumat verdi. Qeyd etdi ki, əhalinin maarifləndirilməsi üçün xüsusi çarxlar hazırlanıb və mətbuatda, sosial şəbəkələrdə yayılıb. İcraçı direktor maarifləndirmə tədbirlərinin təhsil müəssisələrini də əhatə etməsinin vacibliyini bildirdi və bu istiqamətdə də tədbirlərin görüləcəyini dedi. Avtomobil və əmlak sığortalarından da danışan R.Əhmədov innovativ sistemlərdən istifadənin gündəmdə olduğunu vurğuladı.

Aqrar sığortanın ölkəmizdə tətbiqi istiqamətində görülən işlərdən və qarşıda duran vəzifələrdən söz açan Kənd Təsərrüfatı naziri İnam Kərimov isə qeyd etdi ki, ötən il Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar aqrar sığortanı da əhatə edib. Ölkədə aqrar sahənin davamlılığının təmin edilməsi üçün yeni aqrar sığorta mexanizminin tətbiqi zərurəti yaranmış və uğurlu kənd təsərrüfatı sığorta mexanizmləri olan ölkələrin təcrübəsi araşdırılmışdır. Ən uğurlu modelin tətbiqi üçün qanunvericilik layihəsi hazırlanıb, ötən il "Aqrar sığorta haqqında" qanun qəbul edilib, Aqrar Sığorta Fondu təsis olunub. Yeni sistemə əsasən qeyri-kommersiya prinsipləri ilə tənzimlənən və özəl sektorun iştirakını təmin edən dövlət-özəl sektor əməkdaşlıq modeli tətbiq ediləcək. Nazir ilk aqrar sığorta məhsulunun 2020-ci ilin sonunadək geniş istehlakçı kütləsinə təqdim edilməsinin planlaşdırıldığını vurğuladı.

Sonra Kənd Təsərrüfatı Nazirliyinin "Aqrar sığortanın tətbiqi" adlı təqdimatı nümayiş olundu.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirdi ki, əmlakın sığortası dövlət əmlakına da şamil edilməlidir və burada böyük ehtiyatlar var. O, həmçinin qeyd etdi ki, vətəndaşın və sığorta şirkətlərinin qarşılıqlı inamını artırmaq, bu işdə vətəndaşları daha çox maraqlandırmaq üçün yollar axtarılmalıdır.

Maliyyə naziri Samir Şərifov qeyd etdi ki, son 10 ildə dövlət təbii hadisələrdən ziyan çəkən vətəndaşlara kömək üçün 970 milyon manat vəsait xərcləyib.

Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov isə vurğuladı ki, qanunvericilikdə müvafiq düzəlişlər edilməsinə ehtiyac var.

Ədliyyə nazirinin müavini Azər Cəfərov dedi ki, qanunvericilik sahəsində zəruri olan bütün proseslərdə yaxından iştirak etməyə hazırdırlar.

"ASAN xidmət"in rəhbəri Ülvi Mehdiyev, FHN-in müavini Rafael Mirzəyev və digərləri çıxış edərək görülən işlərdən və qarşıda duran vəzifələrdən danışdılar.

Baş Nazir Əli Əsədov müşavirəyə yekun vuraraq Nazirlər Kabinetinin 2019-cu il 21 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Sığorta sektorunun inkişafına dair 2019-2021-ci illər üçün Tədbirlər Planı"nda nəzərdə tutulmuş işlərin sürətləndirilməsinin və bununla bağlı mütəmadi hesabat verilməsinin vacibliyini bildirdi. Qeyd etdi ki, aqrar sığorta sahəsində qəbul edilmiş qərarların da icrası daim diqqətdə saxlanılmalı və bu istiqamətdə işlər sürətləndirilməlidir.

Qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verən Baş Nazir Əli Əsədov görülmüş işlərin nəticələrinin 3 aydan sonra yenidən müzakirə ediləcəyini bildirdi.

# "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" konfransının iştirakçıları ilə Milli Məclisdə görüş olub





Yanvarın 24-də Milli Məclisin Sədri Oqtay Əsədov Azərbaycanda keçirilən "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" adlı konfransın iştirakçıları ilə görüşüb.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Oqtay Əsədov əvvəlcə Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanı yubileyi münasibətilə təbrik edib. Sədr bildirib ki, Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq səviyyəsindədir. Siyasi əlaqələrin inkişafında dövlətlərimizin başçılarının şəxsi münasibətlərinin və qarşılıqlı səfərlərin böyük rolu var. Hökumətlərimiz və parlamentlərimiz arasında da əlaqələr davamlı olaraq genişlənir. 2019-cu ildə ölkələrimiz arasındakı ticarət dövriyyəsi 3 milyard dollardan artıq olub və bunun daha da artması gözlənilir. Siyasi-iqtisadi münasibətlərimizlə yanaşı, humanitar əlaqələrimiz də getdikcə genişlənir. Bunu bu günlərdə ölkəmizdə keçirilən "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" adlı konfrans bir daha sübut edir.

Oqtay Əsədov diqqətə çatdırıb ki, Azərbaycanda rus dilinə böyük hörmət var, Bakıda Slavyan Universiteti fəaliyyət göstərir, 338 orta məktəbdə rus dilində fənlər tədris olunur, 27 ali məktəbdə isə tədris rusca aparılır. Bundan başqa, Azərbaycanda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları fəaliyyət göstərir.

Sədr bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya son səfəri zamanı keçirilmiş görüşlər, Moskvada təşkil olunmuş X Regionlararası Forum yaxşı nəticələr verib. Həmin səfər zamanı Mehriban Əliyevaya ölkələrimiz arasında münasibətlərin inkişafına verdiyi töhfələrə görə Prezident Vladimir Putin tərəfindən Rusiyanın "Dostluq" ordeni təqdim olunub. Ölkələrimiz arasında münasibətlərin səviyyəsini ən yaxşı xarakterizə edən Prezident İlham Əliyev bildirib ki, əgər bütün ölkələr arasındakı əlaqələr Rusiya və Azərbaycanın münasibətləri kimi olsaydı, dünyada problem qalmazdı.

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin müavini İlyas Umaxanov Bakıda keçirilən "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" konfransında iştirak etmək məqsədilə ölkəmizə səfər çərçivəsində keçirilən görüşləri yüksək qiymətləndirib. Bildirib ki, bu cür tədbirlər ölkələrimiz arasındakı münasibətlərin inkişafına mühüm töhfədir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan İlyas Umaxanov deyib ki, Rusiya bu münaqişənin beynəlxalq hüququn prinsiplərinə uyğun həllinə tərəfdardır.

Görüşdə Milli Məclis Sədrinin müavini Valeh Ələsgərov, parlamentin Aparat rəhbəri Səfa Mirzəyev, deputat Mixail Zabelin, Mədəniyyət naziri Əbülfəs Qarayev və digər rəsmi şəxslər iştirak ediblər.

# Nazirlər Kabinetində görüşdə Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin inkişafından danışılıb



Yanvarın 24-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Nazir Əli Əsədov Mixail Qusmanı yubileyi və Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Şərəf" ordeni ilə təltif olunması münasibətilə təbrik edib.

Görüşdə Rusiya ilə Azərbaycan arasında iqtisadi münasibətlərin getdikcə dərinləşdiyi vurğulanıb, humanitar əlaqələrin genişlənməsindən məmnunluq ifadə olunub.

Söhbət zamanı "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" konfransının uğurla keçdiyi və xalqlar arasında münasibətlərə müsbət təsir göstərdiyi vurğulanıb.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə UNESKO-nun baş qərargahında Azərbaycan xalçalarının sərgisi açılacaq



Yanvarın 29-da Parisdə UNESKO-nun baş qərargahında "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərgi açılacaq.

AZƏRTAC xəbər verir ki, sərgi Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Fransadakı səfirliyi və UNESKO-dakı daimi nümayəndəliyinin təşkilatçılığı ilə reallaşacaq.

Xatırladaq ki, bu sərgi ilk dəfə 2019-cu ildə Fransanın Kann şəhərində Azərbaycan mədəniyyəti günləri çərçivəsində təqdim olunub. Azərbaycan xalçaçılığında yeni "Şəki xalçaları" qrupunun yaradılması məqsədi daşıyan layihə çərçivəsində xalçaçı-rəssam, Xalq rəssamı Eldar Mikayılzadənin eskizləri əsasında iki il ərzində müxtəlif xalçalar toxunub. Həmin xalçalarda Şəki Xan Sarayı və Şəkixanovlar evinin ornamentlərindən, Şəkiyə aid motivlərdən istifadə edilib.

Sərgi UNESKO-nun baş qərargahında fevralın 4-dək nümayiş olunacaq.

# "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" konfransı çərçivəsində "Mədəniyyətlərin dialoqu xalqların dialoqunun əsasıdır" mövzusunda "dəyirmi masa" keçirilib

Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə Bakıda "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" konfransı keçirilir. Konfrans Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Moskva hökumətinin və TASS informasiya agentliyinin dəstəyi ilə təşkil edilib.



Yanvarın 24-də konfrans çərçivəsində "Mədəniyyətlərin dialoqu xalqların dialoqunun əsasıdır" mövzusunda "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayevin, TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın və Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun moderatorluğu ilə keçirilən tədbirdə Azərbaycan Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, dövlət və hökumət strukturlarının nümayəndələri, tanınmış mədəniyyət, təhsil və elm xadimləri, hər iki ölkədən olan jurnalistlər iştirak ediblər.

Tədbirdə çıxış edən Əbülfəs Qarayev vurğulayıb ki, bu konfrans ölkələrimizin ekspertləri, incəsənət xadimləri, alimlər və ictimai xadimlər arasında əlaqələri nizamlamağa və genişləndirməyə imkan verəcək. "Belə tədbirlərin keçirilməsi insanların bir-birini və ölkələrin mədəniyyətlərini daha yaxşı anlamağa, üzləşməli olduğumuz müxtəlif fobiya və təhdidlərə qarşı birləşməyə xidmət edir", - deyən nazir vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə təsirli və səmərəli mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məqsədilə başlanmış "Bakı Prosesi" müxtəlif formatlarda həyata keçirilir: "Azərbaycanın paytaxtında keçirilən konfrans çərçivəsində bu ilin payızında nəzərdə tutulan humanitar forumun işinin təməli qoyulacaq. Biz Rusiya ilə bu mədəniyyətlər dialoqunu həmin foruma hazırlıq məqsədilə təşkil etmişik. Bu, iki paytaxt arasında müəyyən mənada ilk tədbirdir".

Mixail Qusman çıxışında bu konfransın keçirilməsinə göstərdikləri dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirərək deyib: "Ölkələrimizi dərin tarixi köklər bağlayır. Rusiyadan bu tədbirə görkəmli ictimai xadimlərdən və mədəniyyət xadimlərindən ibarət böyük nüfuzlu nümayəndə heyəti gəlib. Onlar hamısı Bakıda olmalarına görə çox sevinirlər. Məsələ təkcə Azərbaycana xas olan ənənəvi qonaqpərvərliklə deyil, həm də nümayəndə heyətini əhatə edən dostluq, əməkdaşlıq və diqqət ilə bağlıdır".

Mixail Qusman xüsusi qeyd edib ki, Ulu Öndər Heydər Əliyev ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin təşəkkülünə böyük töhfə verib. O deyib: "Ümummilli Lider Heydər Əliyevin Azərbaycan ilə Rusiya arasında münasibətlərə, bizim mədəni əlaqələrimizə necə böyük əhəmiyyət verdiyini hamımız xatırlayırıq. Bugünkü konfrans onun vəsiyyətlərinin təcəssümüdür".

Mixail Şvıdkoy qeyd edib ki, beynəlxalq gündəlikdə çox böyük əhəmiyyət kəsb edən Bakı Beynəlxalq Forumu həqiqətən planetar miqyaslı hadisəyə çevrilib: "Bakı Forumu təkcə ikitərəfli münasibətlər üçün deyil, çoxtərəfli münasibətlər üçün də mühüm hadisədir. O, ən müxtəlif ölkələrin, o cümlədən ABŞ, Avropa, Mərkəzi Asiya və Uzaq Şərq ölkələrinin nümayəndələrinin diqqətini cəlb edir. Budəfəki konfrans göstərir ki, bizi əsrlərboyu davam edən insani dostluq münasibətləri bağlayır".

Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova qeyd edib ki, mədəniyyətlərin dialoqu qarşılıqlı hörmətin göstəricisi və təmas nöqtələri axtarışıdır. O deyib: "Mədəniyyətlərin dialoqu o deməkdir ki, mədəniyyətlər və ənənələr kənardan zorla qəbul etdirilməsin. Həm Rusiya, həm də Azərbaycan elə bir vəziyyətlə üzləşir ki, bizim necə yaşamalı, nəyi dəyişməli, nəyi keçmişdən saxlamalı, kiminlə ünsiyyət qurmalı və dostluq etməli olmağımız barədə bitib-tükənməz məsləhətlər verirlər, bunları zorla qəbul etdirməyə çalışırlar. Mədəniyyətlərin dialoqu ənənələri qoruyub saxlamaqla ümumi dəyərlər tapmaq bacarığıdır. Mədəniyyətin bu tərəfini inkişaf etdirmək lazımdır".

Xalq yazıçısı Anar, akademik Kamal Abdullayev, Xalq artisti Fərhad Bədəlbəyli, Xalq rəssamı Fərhad Xəlilov, RF Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədri Konstantin Kosaçov, rusiyalı şair Aleksandr Qorodnitski və digər çıxış edənlər vurğuladılar ki, bu gün, Rusiya ilə Azərbaycanın münasibətləri bütün istiqamətlərdə intensiv inkişaf etdiyi bir vaxtda mədəni əlaqələr birləşdirici vəsilədir. Vurğulanıb ki, bəzən mədəni əməkdaşlıq siyasi və iqtisadi əməkdaşlıqla müqayisədə heç də az rol oynamır. Mədəniyyət, təhsil və elm sahələri Azərbaycan-Rusiya strateji tərəfdaşlığının uğurlu inkişafında böyük amillərdir. İki ölkənin dövlət başçılarının səmimi dostluq münasibətləri bu prosesdə həlledici amildir. Qeyd edilib ki, bu cür tədbirlər humanitar əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynayır.

"Dəyirmi masa"nın gedişində Moskva Şəhər Mədəniyyət Departamenti ilə Bakı Şəhər Baş Mədəniyyət İdarəsi arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb.

Qeyd edək ki, konfrans çərçivəsində Rusiyada yaşayan görkəmli azərbaycanlılara və Azərbaycanda yaşayan rusların məşhur nümayəndələrinə həsr edilmiş fotosərgi keçirilməsi planlaşdırılır. Sərgi TASS informasiya agentliyi tərəfindən Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə birgə təşkil olunub.

Konfrans çərçivəsində TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Rusiya Federasiyasının Əməkdar jurnalisti Mixail Qusmanın "Hakimiyyət formulu" və "Həyat formulu" kitablarının təqdimatı və digər mədəni tədbirlər nəzərdə tutulur.

# Xarici İşlər Nazirliyi Azərbaycan vətəndaşlarına Çindəki vəziyyətlə bağlı xəbərdarlıq edib

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ölkə vətəndaşlarına Çin Xalq Respublikasında mövcud olan vəziyyətlə bağlı xəbərdarlıq edib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilir ki, 2019-cu ilin dekabrında Çin Xalq Respublikasının Uxan şəhərində yeni növ təhlükəli virus (coronavirus 2019-nCoV) aşkarlanıb və insandan-insana keçmə xüsusiyyəti olduğuna görə bu virusa yoluxan insanların sayında artım müşahidə edilib.

Çin Milli Səhiyyə Komitəsinin 2020-ci il 24 yanvar tarixli məlumatına əsasən, 177 nəfərin vəziyyəti kritik olmaqla, 830 nəfər sözügedən virusa yoluxub və 25 nəfər vəfat edib. Çinin Uxan şəhərində karantin elan olunub. Dünya Səhiyyə Təşkilatı kəskin respirator xəstəliklərin yayılması riskinin azaldılması məqsədilə aşağıdakıları tövsiyə edir:

- kəskin respirator xəstəliklərdən əziyyət çəkən insanlarla yaxın təmasdan çəkinmək;
- xəstə insanlarla və ya onların mühiti ilə birbaşa təmasdan sonra əlləri yumaq;
- canlı/ölü vəhşi və ya kənd təsərrüfatı heyvanları ilə yaxın təmasdan çəkinmək;
- kəskin respirator xəstəliklər simptomu olan səyahətçilər öskürək etiketinə əməl etməlidirlər (məsafə saxlanılmalı, öskürək zamanı ağzı bağlamaq və əlləri yumaq);
- yaranmış vəziyyətlə bağlı təşvişə düşməmək;
- sözügedən xəstəliklə bağlı hansısa simptomlar müşahidə edildiyi təqdirdə birbaşa müvafiq tibb müəssisəsinə müraciət etmək.

Çinə səfər etmək istəyən Azərbaycan vətəndaşlarına ehtiyatlı olmalarını, Dünya Səhiyyə Təşkilatının tövsiyələrinə əməl etmələri və ölkədə mövcud olan vəziyyəti nəzərə almaları tövsiyə olunur.

Çində daimi, müvəqqəti yaşayan və olan Azərbaycan vətəndaşlarının ölkədə elan olunmuş mövcud qaydalara əməl etmələri və yaranmış hər hansı problemlə əlaqədar yardım göstərilməsi üçün Çinin müvafiq səhiyyə qurumlarına və Azərbaycanın bu ölkənin Pekin şəhərində yerləşən səfirliyinə müraciət etmələri tövsiyə olunur.

Azərbaycan Respublikasının xarici ölkələrdəki bütün səfirlik və konsulluqlarının ünvanları Xarici İşlər Nazirliyinin internet səhifəsində (www.mfa.gov.az) yerləşdirilib. Xarici ölkələrdə daimi, müvəqqəti yaşayan və olan Azərbaycan vətəndaşlarına fövqəladə hallar və digər təhlükələr zamanı lazımi kömək göstərilməsi üçün səfirlik və konsulluqlarla əlaqə saxlamaları, konsulluq qeydiyyatına durmaları tövsiyə olunur.

Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı səfirliyi

**Ünvan: 100600, Qijayuan Diplomatic Compound, Villa B-3-3, Beijing, China**
**Tel: (+8610) 65 32 46 14**
**Faks: (+8610) 65 32 46 15**
**E-mail: mailbox@azerbembassy.org.cn**

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi**
**Ünvan: Bakı şəhəri, Şıxəli Qurbanov küçəsi, 50, AZ 1009**
**Tel: +994 (12) 596 90 00**
**Faks: +994 (12) 596 90 01**
**E-mail: katiblik@mfa.gov.az.**

# Heydər Əliyev Mərkəzində “Onları Bakı və Moskva sevir” fotosərgisi açılıb

Yanvarın 24-də “Bakı-Moskva: mədəniyyətlərin dialoqu” konfransı çərçivəsində Heydər Əliyev Mərkəzində “Onları Bakı və Moskva sevir” adlı fotosərgi açılıb.










AZƏRTAC xəbər verir ki, sərgi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi və Rusiyanın TASS İnformasiya Agentliyinin birgə təşkilati dəstəyi ilə reallaşıb.

Açılış mərasimində çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov deyib: “Sərgidə TASS-ın və AZƏRTAC-ın fotomüxbirləri tərəfindən çəkilmiş 60-dan çox foto nümayiş etdirilir. Buna görə də sərgini cəsarətlə iki informasiya agentliyinin birgə yaradıcılıq işinin bəhrəsi adlandırmaq olar”.

Qeyd olunub ki, bu fotolarda ölkələrimizin liderləri, tanınmış siyasətçilər, ictimai xadimlər, elm adamları, aktyorlar, musiqiçilər və idmançılar əks olunub. Ekspozisiyada Azərbaycan xalqının Ümummilli Lideri, Rusiya-Azərbaycan münasibətlərini tamamilə yeni məzmunla zənginləşdirmiş Heydər Əliyevin, öz səyləri ilə ölkələrimiz arasında əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldən və gündən-günə möhkəmləndirən Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin fotoları var.

Bəstəkarlar Qara Qarayev və Fikrət Əmirov, SSRİ Xalq rəssamı Tahir Salahov, SSRİ Xalq artisti Müslüm Maqomayev, böyük musiqiçimiz və diplomatımız, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, görkəmli neftçi Fərman Salmanov da bu fotoların qəhrəmanlarıdır.

Onların hər biri öz sahəsində ölkələrimizin şöhrətlənməsinə və ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsinə töhfə verib, bəziləri hələ də töhfə verməyə davam edirlər. Həqiqətən də onları həm Rusiyada, həm də Azərbaycanda tanıyır və sevirlər.

İstedadlı azərbaycanlıların yeni nəslinin yetişdiyini vurğulayan AZƏRTAC-ın İdarə Heyətinin sədri deyib: “Onlar Rusiyada müvəffəqiyyətlə çalışmaqla bərabər, Azərbaycanı təbliğ edirlər. Fotolarda əks olunmuş bu insanlara baxdıqca, Ulu Öndər Heydər Əliyevin sözlərini xatırlayıram: “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”



Aslan Aslanov bildirib ki, TASS-ın və AZƏRTAC-ın fotomüxbirlərinin böyük yaradıcı potensialını nümayiş etdirən ekspozisiya bir-birinə səmimiyyəti və qarşılıqlı dəstəyi ilə həmişə fərqlənən agentliklərimizin sıx əlaqələrinin təsdiqidir. Bu sərgi ölkələrimizin qarşılıqlı münasibətlərinin bir növ fotolarda əks olunmuş tarixidir və illər keçdikcə həmin fotoların dəyəri daha da artır. Əminəm ki, qarşıda birgə sərgilərimiz çox olacaq. Çünki ölkələrimizin əməkdaşlığı genişlənir və möhkəmlənir, biz isə öz informasiyalarımız və fotolarımızla bu dostluğun salnaməsini yaratmaq üçün əlimizdən gələni edəcəyik.

TASS İnformasiya Agentliyinin baş direktoru Sergey Mixaylov bildirib ki, sərginin adı ilk baxışda sadə görünsə də, əslində, çox dərin mənaya malikdir. Bizim ölkələrimizin, xalqlarımızın qarşılıqlı münasibətlərində, ümumiyyətlə, sevgi vacib sözdür. Sevgini Bakıya, bu torpağa qədəm qoyduğun andan duyursan. Əminəm ki, azərbaycanlılar da Moskvada bu hissi keçirirlər. Bu ekspozisiyada şəkillərin sayı çox olmasa da, əslində, xalqlarımızın bir-birinə xoş münasibətini əks etdirən fotoşəkilləri sərgiləmək üçün ən geniş salonlar da kifayət etməz. Onların sayı minlərlədir. Çünki biz Azərbaycanda yaşayan hər kəsi sevirik. Moskvaya gəlin. Biz əminik ki, Rusiya ilə Azərbaycanın münasibətləri daha da möhkəmlənəcək, inkişaf edəcək, genişlənəcək. Fotolar minlərlə sözdən daha çox şeyi deyir.

Açılışı bildirən rəmzi lent kəsildikdən sonra iştirakçılar sərgi ilə tanış oldular.

Ekspozisiyada sərgilənən fotolar arasında Azərbaycan Prezidenti Heydər Əliyev və Rusiya Prezidenti Vladimir Putin Rusiya-Azərbaycan arasında sənədlərin imzalanması mərasimində, Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyev Heydər Əliyev Fondunda. Fondun prezidenti Mehriban Əliyeva Vladimir Putinə xatirə hədiyyəsi təqdim edərkən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Prezidenti Vladimir Putinlə görüşərkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qırğızıstan Respublikasının Prezidenti Sooronbay Jeenbekov və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin “Şelkunçik” baletindən sonra Mariinski Teatrının truppası ilə görüş zamanı, müğənni Tamara Sinyavskaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Tretyakov qalereyasında keçirilən “Abşeron ulduzları, 1960-1980-ci illərin Azərbaycan rəssamları” sərgisinin açılışında və digər fotolar ziyarətçilər tərəfindən maraqla izlənib.

❖ ❖ ❖

Sərgi ilə tanışlıqdan sonra Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın yubileyinə həsr olunmuş ziyafət təşkil edilib.

Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev “Bakı-Moskva: mədəniyyətlərin dialoqu” konfransının əhəmiyyətindən danışıb, tədbirin təşkilinə göstərdiyi dəstəyə görə dövlət başçısına minnətdarlığını bildirib.

Yubilyar Mixail Qusman təşkilatçılara minnətdarlığını bildirib. TASS-ın baş direktorunun birinci müavini deyib: “Otuz ildən çoxdur ki, Moskvada yaşamağıma baxmayaraq, özümü bakılı hesab edirəm, ildə bir neçə dəfə bu gözəl şəhərə səfər edirəm. Çünki Bakı mənim üçün doğma şəhərdir”.

Tədbirdə bir sıra ölkələrin media nümayəndələri və mədəniyyət xadimləri çıxış edərək yubilyara təbriklərini çatdırıblar.

Ziyafət bədii hissə ilə davam edib.

## “Şahdəniz”dən çıxarılan qazın 77,6 milyard kubmetri ixrac edilib

Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz” qaz-kondensat yatağı istismara veriləndən cari il yanvarın 1-dək çıxarılan qazın 77,6 milyard kubmetri ixrac olunub.

AZƏRTAC-ın Energetika Nazirliyinin hesabatına istinadən yaydığı məlumatda daha sonra bildirilir ki, “Şahdəniz” qaz-kondensat yatağından indiyədək 112 milyard kubmetrdən çox təbii qaz çıxarılıb. Mövcud “Şahdəniz” qurğularının hasilat gücü hazırda gündəlik 56 milyon (ildə 20 milyard) standart kubmetrdir.

## Aqrobioloji müxtəlifliyin mühafizəsi və davamlı istifadəsi ilə bağlı layihənin icrasına start verilir

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunda “Qlobal əhəmiyyətli aqrobioloji müxtəlifliyin mühafizəsi və davamlı istifadəsi” layihəsi çərçivəsində görüş kecirilib.

Görüşdə layihə rəhbəri Fərid Abbasov, kənd təsərrüfatı üzrə mütəxəssis Mehrac Abbasov, layihənin ekspertləri Elməddin Namazov və Xanbala Rüstəmov iştirak ediblər.

Layihə çərçivəsində aqrobiomüxtəlifliyin in situ və ex situ mühafizəsi komponenti daxilində milli genbankda nümunələrin saxlanılma şəraitinin yaxşılaşdırılması üzrə avadanlıqların alınması, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu, Əkinçilik Elmi-Tədqiqat İnstitutu, Azərbaycan Dövlət Aqrar Universiteti və Naxçıvan Bioresurslar İnstitutunda olan kolleksiyaların saxlanılmasına dəstəyin göstərilməsi, hədəf rayonlarda və respublikanın cənub bölgəsində ekspedisiyaların davam etdirilməsi, toplanılmış bitki nümunələrinin tarla genbanklarında çoxaldılması, biomorfoloji əlamətlər əsasında qiymətləndirilməsi, əlamət və özək kolleksiyalarının yaradılması və Milli Genbankda saxlanılmasının təmin edilməsi haqqında müzakirələr aparılıb. Tarla genbanklarında müşahidələrin aparılması, fermerlərə dəstəyin davam etdirilməsi, onların məlumat bazasının zənginləşdirilməsi, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu ilə danışıqların davam etdirilməsi, yeni bağın salınması və kolleksiya bağına dəstəyin göstərilməsinin həyata keçirilməsi qərara alınıb.

Sonda Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Genbankına baxış keçirilib.

## Dron kəndlinin köməyinə gəlir



Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin təşəbbüsü ilə icra olunan “Alimlər fermerlərin yanında” layihəsi çərçivəsində növbəti maarifləndirmə tədbiri cənub bölgəsində həyata keçirilib.

Tədbir çərçivəsində Cəlilabad rayonunun Sərhədabad kəndi ərazisindəki taxıl sahələrində yayılmış “haf” zərərvericisinə qarşı dronlar vasitəsi ilə mübarizə tədbirləri aparılıb. Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları, bölgə fermerləri, fitopatoloqlar, aqrokimyaçılar, entomoloqlar və becərmə texnologiyası üzrə kadrlardan ibarət tədqiqat qrupu iştirak edib.

Sahə nümayişi çərçivəsində mobil mini laboratoriyadan istifadə etməklə torpaqda NPK-nın (azot, fosfor, kalium), eləcə də PH-ın miqdarı mütəxəssislər tərəfindən yerindəcə təyin edilib və nəticəyə uyğun olaraq gübrə dozası müəyyən edilərək fermerə təqdim olunub. Bildirilib ki, layihənin əsas məqsədi nazirliyin fəaliyyətində əsas götürdüyü fermerə yaxınlıq prinsipinin reallaşmasına dəstək göstərmək, torpaq adamlarının məsləhət-informasiya xidmətinə olan ehtiyacının təmin olunması üçün elm adamları ilə onlar arasında münasibətlər yaratmaq, birbaşa təsərrüfatlara səfər edərək aqrotexniki qulluq, bitki mühafizə, zootexniki, baytarlıq və digər sahələr üzrə tədbirlərin həyata keçirilməsində kömək göstərməkdir.

Layihə çərçivəsində mövsümə uyğun olaraq digər bölgələrdə də kənd təsərrüfatı məhsulları istehsalçıları üçün tarla seminarlarının keçirilməsi nəzərdə tutulur.

## «Şəfəq-Asiman» blokunda ilk kəşfiyyat quyusunun qazılmasına başlanıb

### Qazma əməliyyatları strukturun potensialının tam dəqiqləşməsinə imkan yaradacaq



Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Şəfəq-Asiman” blokunda ilk kəşfiyyat quyusunun qazılmasına başlanıb. Bu barədə SOCAR və BP şirkətləri məlumat yayıblar.

“Şəfəq-Asiman”ın birgə kəşfiyyatı və işlənməsi üçün Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) bu iki şirkət arasında 2010-cu ilin oktyabr ayında Bakıda imzalanıb. Sazişdə onların hər biri 50 faiz iştirak payına malikdir, operator BP-dir.

SAX01 bu müqavilə sahəsində qazılacaq ilk quyudur və 2011-ci ildə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən ratifikasiya edilmiş HPBS çərçivəsində BP-nin öhdəliklərinə uyğundur. Quyuda qazma tamamlanandan sonra əldə olunan göstəricilər təhlil ediləcək və onlar uğurlu olarsa, nəticələrin təsdiqlənməsi üçün qiymətləndirmə proqramı həyata keçirilə bilər.

Xatırladaq ki, “Şəfəq-Asiman” bloku Bakıdan cənub-şərq istiqamətində təxminən 125 kilometr məsafədə yerləşir. Bu 1100 kvadrat kilometrə yaxın sahəni əhatə edir və ərazisində suyun dərinliyi 650-800 metr arasında dəyişir.

“Şəfəq-Asiman”ı “Şahdəniz” yatağından 60 kilometr və Səngəçal terminalından 145 kilometr məsafə ayırır. 2012-ci ildə bu müqavilə sahəsində üçölçülü seysmik tədqiqat proqramı həyata keçirilib. Seysmik məlumatların interpretasiyası 2015-ci ildə tamamlanıb. Sonra isə ilk quyunun yeri seçilib və qazma fəaliyyətləri planlaşdırılıb.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev bununla bağlı deyib: “Bir müddət əvvəl biz tərəfdaş BP şirkəti ilə birlikdə “Şəfəq-Asiman” strukturunda seysmik kəşfiyyat işlərini uğurla başa çatdırdıq. İndi növbəti mərhələyə qədəm qoyaraq, kəşfiyyat quyusunun qazılmasına başlayırıq. Kəşfiyyat qazması strukturun potensialının tam dəqiqləşməsinə imkan yaradacaq. Qürurla deyə bilərik ki, bu gün “Şahdəniz”, “Azəri-Çıraq-Günəşli” və “Şəfəq-Asiman” kimi mürəkkəb layihələr çərçivəsində qazma işlərindən tutmuş dərin özüllərin inşasına kimi bütün əsas xidmətlər məhz Azərbaycan şirkətləri, SOCAR-ın müəssisələri tərəfindən həyata keçirilir. Bu da müstəqillik dövründə Azərbaycan neftçilərinin qazandığı ən mühüm nailiyyətlərdən biridir.”

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə prezidenti Qəri Counz bildirib ki, “Şəfəq-Asiman” dəniz blokunda ilk kəşfiyyat quyusunun qazılmasına başlamaqdan çox məmnunuq və sevinirik: “Bu dəniz blokunun irimiqyaslı qaz ehtiyatlarının kəşfi üçün xeyli potensialı var. Qazma proqramının təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsini təmin etmək üçün böyük hazırlıq işləri aparılıb”.

SAX01 quyusu “Caspian Drilling Company” (CDC) tərəfindən idarə olunan Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsilə qazılır. Qazma zamanı təzyiqi tam idarə etmək imkanlarına malik olan bu qurğu keçən ilin noyabr ayında SAX01 quyusunda iş aparmaq üçün müqavilə əsasında götürülüb. Qurğu quyunun qazılacağı sahəyə gətirilib və burada əməliyyatların başlanmasına hazırlıq görülüb.

Quyunun ümumi dərinliyinin 7000 metrə çatacağı planlaşdırılır və qazma işlərinin təxminən doqquz ay davam edəcəyi gözlənilir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Cari il üçün özünüməşğulluq proqramı üzrə təlimlərə başlanıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti 2020-ci il üçün özünüməşğulluq proqramı üzrə təlimlərə başlayıb.

Nazirliyin yaydığı məlumatda bildirilir ki, ilkin mərhələdə təlimlər Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda təşkil edilib. Bir aylıq təlim müddətində iştirakçılara biznes-plan qurmaq, kiçik biznesin təşkili və inkişaf etdirilməsi üzrə bilik və bacarıqlar öyrədiləcək.

Təlimin yekununda iştirakçıların özünüməşğulluq fəaliyyətinə hazırlıq səviyyələrinin, onların hazırladıqları biznes-planların qiymətləndirilməsi həyata keçiriləcək.

Yaxın günlərdə bölgələrdə də özünüməşğulluq proqramı iştirakçıları üçün təlimlərin keçirilməsinə başlanacaq.

## DƏMX son bir ildə 8,5 mindən çox vətəndaşın müraciətini araşdırıb

2019-cu ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə (DƏMX) vətəndaşlar tərəfindən ərizə formasında 8512 müraciət daxil olub.

Vətəndaş müraciətləri daha çox emal, tikinti, topdan və pərakəndə ticarət, avtomobillərin təmiri, ictimai iaşə və digər sahələrdə əmək münasibətlərinə aid olub. Müraciətlərin araşdırılması zamanı əmək qanunvericiliyinin tələblərinin yerinə yetirilməməsi ilə bağlı 625 hüquq pozuntusu aşkar edilib.

Əsasən əməkhaqlarının ödənilməməsi və işçilərin məzuniyyət hüquqlarının pozulması, əmək müqavilələrinin bağlanılmaması, yaxud onun şərtlərinin yerinə yetirilməməsi və s. ibarət olan bu hüquq pozuntularının aradan qaldırılması təmin edilib. Törədilmiş inzibati xətalara görə, vəzifəli və hüquqi şəxslər barəsində inzibati qərarlar qəbul edilib.

9 fevral Milli Məclisə seçkilər günüdür

# MSK-nın Şəkidə keçirdiyi regional seminarda seçki mübahisələrinin həllinə dair məsələlər müzakirə olunub

**Fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) Ali Məhkəmə və apelyasiya məhkəmələri ilə birgə layihəsi çərçivəsində yanvarın 24-də Şəki şəhərində keçirilən regional seminar-müşavirədə seçki mübahisələrinin məhkəmə qaydasında həllinə dair məsələlər ətraflı müzakirə olunub.**

Şəki şəhərindəki "ASAN xidmət" mərkəzində keçirilən seminar-müşavirədə MSK-nın üzvləri, müvafiq məhkəmə orqanlarının təmsilçiləri, eləcə də Şəki-Zaqatala bölgəsində, ətraf şəhər və rayonlarda fəaliyyət göstərən 17 seçki dairəsi üzrə dairə seçki komissiyalarının sədrləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, seminar-müşavirə MSK-nın üzvü İlham Məmmədov, Ali Məhkəmənin hakimi Kəmaləddin Bədəlov və Şəki Apelyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov açılış nitqləri ilə başlayıb. Bildirilib ki, Şəki ilə yanaşı, ölkənin daha bir neçə regionunda təşkil edilən seminar-müşavirələr müvafiq məhkəmə hakimləri və dairə seçki komissiyaları sədrlərinin müraciət və şikayətlərə baxılması ilə bağlı məlumatının artırılması, praktiki vərdişlərinin gücləndirilməsi və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin edilməsi məqsədi daşıyır.

Sonra MSK-nın üzvü Bəxşeyiş Əsgərov "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin seçki komissiyalarına verilməsi və onların araşdırılması qaydaları" mövzusunda təqdimatla çıxış edib. Seçkilərə hazırlıqla bağlı görülən işləri diqqətə çatdıran MSK üzvü bildirib ki, indiyədək 1447 nəfərin deputatlığa namizədliyi qeydə alınıb. Bu gündək 262 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Qeydiyyatdan keçən 42 min 257 nəfər yerli müşahidəçidən 1302 nəfəri bütün ölkə üzrə müşahidə aparacaq. Yerli müşahidəçilərin 25 min 40 nəfəri siyasi partiyaların nümayəndələridir.

Seminar-müşavirədə, həmçinin Ali Məhkəmənin hakimi Kəmaləddin Bədəlovun "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi" və Şəki Apelyasiya Məhkəməsinin hakimi Mübariz Hüseynovun "Məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat" mövzularında təqdimatları dinlənilib.

Təqdimatlardan sonra müzakirə olunan məsələlərlə bağlı iştirakçıların sualları cavablandırılıb.

Seminar-müşavirədə ATƏT-in Albaniyadan olan beynəlxalq müşahidəçisi də iştirak edib.

# Nur şəhəri seçkilərə hazırdır

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərə hazırlıq ölkənin ictimai-siyasi həyatına təbii bir qaynarlıq gətirmişdir.

Paytaxt Bakıda olduğu kimi, bölgələrdə də deputatlığa namizədlər seçicilərlə intensiv görüşlər keçirir, kənd-kənd, qəsəbə-qəsəbə gəzib əhali ilə təmas qurur, seçiciləri öz platformaları ilə tanış edirlər.

Bu günlər energetiklər şəhəri Mingəçevirdə də seçkiqabağı təbliğat-təşviqat kampaniyası müvafiq seçki qanunvericiliyinə uyğun qaydada davam edir. 47 saylı dairə seçki komissiyasının sədri Oqtay Məmmədovla görüşüb seçkilərə hazırlıq prosesinin gedişi ilə bağlı zəruri məlumatlar aldıq. Öyrəndik ki, seçki dairəsi 31 məntəqəni əhatə edir. Adları seçici siyahılarına daxil edilmiş şəhər sakinlərinin ümumi sayı isə 37.745 nəfərdir. Aşkarlığı, şəffaflığı təmin etmək üçün mövcud seçki məntəqələrinin 12-də VEB kameralar quraşdırılmışdır. Seçki dairə və məntəqələrində texniki təminat yüksək səviyyədədir. 17,18,10, 24 və 25 saylı seçki məntəqələrində hazırlıq işlərinin daha nümunəvi təşkili diqqət çəkir.

47 saylı Mingəçevir dairə seçki komissiyası üzrə deputatlığa namizədliyi qeydə alınmış 12 nəfər arasında seçki rəqabəti demokratik qaydalara uyğun qaydada davam edir. Hər bir namizəd üçün bərabər və normal şərait yaradılmışdır. Dairə seçki komissiyasında seçkilərdə müşahidə missiyasını həyata



keçirmək istəyənlərin dəqiq uçotu aparılır. Artıq qeydə alınmış müşahidəçilərin sayı 400-ə yaxındır. Onların sayı hər gün artmaqdadır.

Demək olar ki, nur şəhəri fevralın 9-da keçiriləcək Milli Məclisə seçkilərə tam hazırdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***



Ərazisi erməni qəsbkarları tərəfindən işğal olunduqdan sonra qubadlılılar respublikanın 42 rayon və şəhərində müvəqqəti məskunlaşıb. Onların əksəriyyəti Sumqayıt şəhərində yaşayır. Rayonun icra strukturları, idarə və təşkilatları da əsasən burada fəaliyyət göstərir.

# Seçici arzusu

Qubadlılılar köçkün həyatı yaşasalar da, ölkənin iqtisadi-siyasi həyatında fəal iştirak edir. Onlar fevralın 9-da keçiriləcək parlament seçkilərinə də ciddi hazırlaşırlar. 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin əhatə etdiyi məntəqələrin hamısında hazırlıq işləri Mərkəzi Seçki Komissiyasının tədbirlər planına uyğun olaraq aparılmışdır.

Seçki dairəsinin 36 saylı məntəqəsi İnşaatçılar qəsəbəsində İşıqlı kənd tam orta məktəbinin binasında fəaliyyət göstərir. Yolumuzu bu məntəqədən saldıq. Məntəqə seçki komissiyasının sədri Fərhad Yusifov bildirdi ki, seçki məntəqəsi texniki avadanlıqla tam təmin olunub. Məntəqədə namizədlərin təbliğat-təşviqat materiallarını yerləşdirmələri üçün lövhələr quraşdırılıb. Onların hər birinə bərabər şərait yaradılıb. Hazırda qeydə alınan namizədlər seçicilərlə görüşür, platformalarını bəyan edirlər.

Seçicilərə gəldikdə isə, komissiya sədri dedi ki, yaşı 80-100 arasında olanların sayı 201, ilk dəfə səs verənlərin sayı isə 3 nəfərdir. Bu günlərdə gənclərlə görüş keçirdik. Gənclər söhbət zamanı bizə kömək etməyə hazır olduqlarını da bildirdilər. Bu, çox yaxşı haldır. Yaşlı insanların səsvermədə iştiraklarını təmin etmək üçün də tədbir görmüşük. Seçicilərimiz söhbət zamanı deyirlər ki, ən böyük arzuları növbəti seçkiləri doğma yurd-yuvalarında keçirməkdir. Biz əminik ki, belə də olacaq. Çünki ölkəmizin artan iqtisadi və hərbi qüdrəti bunu deməyə əsas verir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Naxçıvanda "Seçki hüquqlarının pozulmasına dair şikayətlərin məhkəmə qaydasında həlli" mövzusunda seminar-müşavirə olub

Naxçıvan şəhər 4 saylı Seçki Dairəsində keçirilən "Seçki hüquqlarının pozulmasına dair şikayətlərin məhkəmə qaydasında həlli" mövzusunda seminar-müşavirədə muxtar respublika üzrə dairə seçki komissiyalarının sədrləri və müavinləri, Şikayətlərin Araşdırılması Komissiyasının üzvləri iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, seminar-müşavirədə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədr müavini Əli Qədimov çıxış edərək Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2020-ci il fevralın 9-na təyin olunmuş seçkilərin muxtar respublikada şəffaf və azad keçirilməsi üçün zəruri tədbirlərin görüldüyünü bildirib. Vurğulayıb ki, seçki hüquqlarının təmin olunması sahəsində görülən işlər bu baxımdan əhəmiyyət kəsb edir.

"Vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onların araşdırılması qaydası" mövzusunda çıxış edən muxtar respublikanın Mərkəzi Seçki Komissiyasının baş məsləhətçisi Xəlil Əliyev bildirib ki, Seçki Məcəlləsinin 112-ci maddəsinə əsasən seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Qeyd olunub ki, bu haqda şikayət yazılı verilir. Onun yazılı şəkildə verilməsi mümkün deyilsə, müstəsna hallarda şifahi, telefonla və ya elektron poçt vasitəsilə verilə bilər. Qanunvericiliyin tələbinə görə, məntəqə seçki komissiyalarının qərarlarından, hərəkətlərindən (hərəkətsizliklərindən), məntəqə seçki komissiyaları sədrlərinin hərəkətlərindən (hərəkətsizliklərindən) şikayətlər müvafiq dairə seçki komissiyalarına, dairə seçki komissiyalarının qərarlarından, hərəkətlərindən (hərəkətsizliklərindən), dairə seçki komissiyaları sədrlərinin hərəkətlərindən (hərəkətsizliklərindən) şikayətlər, həmçinin bir neçə seçki dairəsini əhatə edən (o cümlədən seçkiqabağı təşviqat qaydalarının pozulması ilə bağlı) şikayətlər Mərkəzi Seçki Komissiyasına təqdim edilir.

Vurğulanıb ki, Mərkəzi Seçki Komissiyasının qərarlarından və ya hərəkətlərindən (hərəkətsizliyindən) şikayət müvafiq apelyasiya instansiyası məhkəməsinə verilir. Bundan əlavə, şikayətdə göstərilmiş qanun pozuntusu Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq cinayət hesab oluna bilərsə, müvafiq seçki komissiyası şikayətdə göstərilən çatışmazlıqların və qanun pozuntularının aradan götürülməsinə dair qərar qəbul etməklə yanaşı, cinayət işinin başlaması məqsədilə müvafiq prokurorluq orqanına müraciət edir. Mərkəzi Seçki Komissiyası hər bir şikayətə dair əsaslandırılmış qərar qəbul etməlidir. Şikayətin araşdırılması zamanı cinayət əməlinin olması ehtimal edilərsə, bu barədə prokurorluq orqanına məlumat verilir. Müvafiq prokurorluq orqanı həmin məlumata 3 gün müddətində baxmalıdır.

Diqqətə çatdırılıb ki, Seçki Məcəlləsinin 112.10-cu maddəsində seçki komissiyalarına seçkilərin gedişi zamanı seçki hüquqlarının pozulması ilə əlaqədar daxil olmuş şikayət və müraciətlərə baxılması müddəti müəyyən edilib. Qanunvericiliyin tələbinə görə, hər bir şikayət və ya müraciət üzrə qərar 3 gün müddətində, səsvermə gününə 30 gündən az müddət qalırsa, 2 gün müddətində (lakin səsvermə günündən gec olmayaraq), səsvermə günü və yaxud növbəti gün isə dərhal qəbul edilir və şikayətçiyə çatdırılır. Həmçinin seçki komissiyalarının qərarlarından şikayətlərə məhkəmələr 3 gün müddətində, səsvermə gününə 30 gündən az müddət qalırsa, 2 gün müddətində (lakin səsvermə günündən gec olmayaraq), səsvermə günü və yaxud növbəti gün isə dərhal baxmalıdırlar. Məhkəmə qərarından yuxarı instansiya məhkəməsinə şikayət 3 gün müddətində verilə bilər. Ekspert rəyi verildikdən dərhal sonra elan olunur və ya növbəti 18 saatdan gec olmayaraq müvafiq seçki komissiyasının qərarı ilə birlikdə dərc olunur (internet səhifəsində yerləşdirilir), şikayətçiyə çatdırılır və ya göndərilir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədr müavini Əsgər Novruzov "Seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi" mövzusunda çıxışında bildirib ki, ölkəmizdə vətəndaşların seçki hüquqları və onun təminatının qanunvericilik əsasları Azərbaycan Respublikasının Konstitusiyası, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Seçki Məcəlləsi, Cinayət Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və İnzibati Prosessual Məcəlləsi ilə tənzimlənir.

"Seçki Məcəlləsinin 115-ci maddəsində hansı şəxslər tərəfindən seçki hüququnun pozulmasına görə Azərbaycan Respublikasının Cinayət, Mülki və İnzibati Xətalar məcəllələrinə uyğun olaraq cinayət, mülki və ya inzibati məsuliyyət daşımaları göstərilib və seçki hüququnun pozulması və ya məhdudlaşdırılması kimi hesab edilən qanunazidd hərəkətlər sadalanıb", - deyən Əsgər Novruzov qeyd edib ki, qanunvericiliyin tələbinə əsasən sadalanan əməllərin xarakteri və ictimai təhlükəlilik dərəcəsinə uyğun olaraq cinayət xarakterli əməllərin törədilməsinə görə məsuliyyət Cinayət Məcəlləsində, inzibati xətalara görə isə məsuliyyət İnzibati Xətalar Məcəlləsində göstərilib. Azərbaycan Respublikası Mülki Məcəlləsinin müddəalarına görə isə sözügedən şəxslər ümumi əsaslarla mülki məsuliyyət daşıyırlar.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətini Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi təmin etdiyindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərin nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən yoxlanılır və təsdiq edilir. Naxçıvan Muxtar Respublikasında seçkilərin qanunda nəzərdə tutulmuş prinsiplər əsasında keçirilməsinin nəticəsidir ki, bugünədək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin icraatına seçki hüquqlarının pozulmasına dair müraciət daxil olmayıb.

# İLHAM ƏLİYEV diplomatiyasının növbəti təntənəsi

## Azərbaycan Prezidenti Davosda dünyanın diqqətini bir daha ölkəmizə yönəltdi

*Əvvəli 1-ci səh.*

Buna görə də müstəqillik illəri ərzində əldə edilən bütün nailiyyətlər xalqın müstəqilliyə sadiq olmasına görə əldə edilib. Bu nailiyyətlər Davos Dünya İqtisadi Forumunun illik qiymətləndirmələrində də öz əksini tapıb. Çünki Azərbaycanda infrastruktur sahəsi çox yüksək səviyyədə inkişaf edib, yolların inşası və keyfiyyətinə gəldikdə, ölkəmiz dünyada 27-ci yerdə qərarlaşıb.

Moderatorun sualına Prezidentin məhz belə cavab verməsini şərtləndirən əsaslar mövcuddur.

*- Bu cavab Azərbaycanın müstəqil, heç kimdən asılı olmayan, milli maraqların hər şeydən uca tutulduğu siyasət yürütdüyünü əyani şəkildə təsdiq edir;*

*- Azərbaycanın qonşu ölkələrlə münasibətləri dostluq, qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsiplərinə əsaslanır;*

*- Azərbaycan üçün onun milli maraqları birinci yerdədir və bütün məsələlərdən öndədir;*

*- müstəqillik illərində əldə olunmuş bütün nailiyyətlər Azərbaycan xalqının müstəqillik amalına sadiq olmasına, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatlar həyata keçirilməsinə görə əldə olunub;*

*- Azərbaycanın əldə etdiyi nailiyyətlər Davos Dünya İqtisadi Forumunun illik hesabatlarında yüksək qiymətləndirilib.*

### İyirmi birinci əsrdə iyirminci əsrin baxışı ilə uğur qazanmaq olmaz

Prezident İlham Əliyev moderatorun ölkəmizdə həyata keçirilən sosial-iqtisadi, eləcə də struktur və kadr islahatları, gənclərə siyasi meydanın verilməsi ilə bağlı sualına da cavabında dəyərli fikirlər səsləndirdi.

"İyirmi birinci əsrdə iyirminci əsrin baxışı ilə uğur qazanmaq olmaz" - deyən cənab İlham Əliyev vurğuladı ki, ölkədə hökumət dəyişib, yüksək vəzifələrə yaxşı təhsil almış, müasir baxışlı yeni insanlar dəvət olunub: "Yeni insanlar nəinki təkcə hökumətə, eyni zamanda çox böyük dəyişikliklərə məruz qalmış Prezident Administrasiyasına da gətirilmişdir. Gələn ay bizdə erkən parlament seçkiləri keçiriləcək. Bu seçkilərin məqsədi insanlara etimad göstərdikləri namizədləri seçmək üçün imkan verməkdir. Əminəm ki, seçkilərdən sonra parlament də islahatların davamının mühüm hissəsi olacaqdır".

Azərbaycanın son 16 ildə əldə etdiyi sosial-iqtisadi uğurlar barədə geniş məlumat verən cənab İlham Əliyev qeyd etdi ki, əvvəllər dövlət əsasən infrastruktur layihələrinə sərmayə yatırıb. Buna görə yenə də Davos Forumuna əsasən Azərbaycan bu gün elektrik enerjisinə çıxış imkanına görə ikinci yerdədir. Ölkədə qazlaşdırma səviyyəsi 96 faiz təşkil edir, son 16 ildə 16 min kilometr yol, 3 mindən çox məktəb və 700 xəstəxana inşa edilib.

Bütün bunlar verilən vədlərin vaxtında yerinə yetirilməsinin əyni təzahürüdür. Sözünə və əməlinə sadiq olan lider kimi cənab İlham Əliyev dünyanın ən mötəbər forumunda da bəyan etdi ki, heç vaxt yerinə yetirə bilməyəcəyi məsələləri dilə gətirmir və ölkəmizdə insanların həyat standartları ildən-ilə daha da yaxşılaşır: "Prezident olaraq mənim hədəflərimdən biri Azərbaycanı özü-özünü təmin edən, heç kimdən asılı olmayan ölkəyə çevirmək idi. Başqa sözlə, iqtisadi müstəqillik əsas prioritet idi, çünki bu, siyasi müstəqillik üçün bünövrədir".

Bu gün cənab İlham Əliyev Azərbaycana tarixinin ən qüdrətli dövrünü yaşadır. Heç vaxt Azərbaycan indiki qədər güclü olmayıb. Həyata keçirilən məqsədyönlü siyasət, iqtisadi, siyasi islahatların uğurları isə onu deməyə əsas verir ki, Azərbaycan 2020-ci ildə də Prezidentin söylədiyi kimi, uğurla inkişaf edəcək və daha güclü dövlətə çevriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Səsimiz nüfuzlu beynəlxalq tribunadan eşidilir

## Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsindən 19 il ötür

*Əvvəli 1-ci səh.*



Aparılan islahatlar Azərbaycanın Avropa ailəsinə inteqrasiyası prosesini daha da sürətləndirdi. Ümummilli Lider Heydər Əliyevin 8 iyun 1996-cı il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında", 20 yanvar 1998-ci il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", habelə 14 may 1999-cu il tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin təmin edilməsi haqqında" sərəncamları ölkəmizin AŞ-nə üzvlüyünə real zəmin yaratdı.

1996-2000-ci illərdə respublikamız insan hüquq və azadlıqlarının, habelə demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşuldu. Bu dövrdə AŞ-də də Azərbaycanla əməkdaşlığa maraq artdı. 2000-ci ilin may ayında AŞ Siyasi Komitəsinin iclasında Azərbaycan üzrə məruzəçinin hesabatı dinlənilərək respublikamızın AŞ-nə tamhüquqlu üzv qəbul edilməsi ilə bağlı rəy verildi. AŞ Parlament Assambleyasının 2000-ci il iyunun 26-28-də keçirilmiş növbəti sessiyası zamanı Azərbaycanın AŞ-nin tamhüquqlu üzvlüyünə qəbul edilməsi məsələsi dəstəkləndi. Beləliklə, 1996-cı ildən təşkilatda xüsusi qonaq statusu ilə təmsil olunan Azərbaycan 2001-ci il yanvarın 17-də qurumun Nazirlər Komitəsinin qərarı ilə AŞ-nin tamhüquqlu üzvlüyünə qəbul edildi. 2001-ci il yanvarın 25-də isə Strasburqda Azərbaycan Respublikasının AŞ-nə tamhüquqlu üzv qəbul edilməsinə həsr olunmuş rəsmi mərasimdə Prezident Heydər Əliyevin rəhbərliyi ilə geniş tərkibli nümayəndə heyəti iştirak etdi.

Ulu Öndər Heydər Əliyev 25 yanvar 2001-ci ildə AŞ PA sessiyasında çıxışı zamanı bu hadisəni belə qiymətləndirdi: *"Tarixi yolların qovuşuğunda yerləşən ölkəmizin Avropa Şurasına qəbul olunması həm Azərbaycan üçün, həm də bu təşkilat üçün çox mühüm hadisədir. Biz Ümumavropa dəyərləri xəzinəsinə öz töhfələrimizi gətirməyə hazırıq. Bu töhfələr həm Avropada demokratik sabitliyin möhkəmlənməsinə, həm də avropalıların Şərq xalqlarının tarixi taleyini daha yaxşı və daha dərindən dərk etməsinə kömək edəcəkdir. Bu, bir tərəfdən, qabaqcıl demokratik ideyaların, hüquqi baxışların yayılması, digər tərəfdən isə bütün xalqların milli-mənəvi xüsusiyyətlərinə hörmət bəslənilməsi üçün yaxşı zəmin olacaqdır. Mən bu mötəbər təşkilatın gələcək inkişafı və möhkəmlənməsində öz ölkəmin xüsusi rolunu və məsuliyyətini bunda görürəm".*

Həm bu çıxışında, həm Milli Məclisin Strasburqa gedəcək nümayəndə heyəti ilə görüşdə, həm də Azərbaycan Respublikasının AŞ-nə üzv qəbul edilməsi ilə əlaqədar təntənəli mərasimdə çıxışları zamanı Heydər Əliyev bu qurumla ölkəmiz arasındakı qarşılıqlı münasibətlərin əsas istiqamətlərini müəyyənləşdirdi. Təbii ki, çıxışlarda qeyd edilən məsələlər AŞ PA-da fəaliyyət göstərəcək Azərbaycanın nümayəndə heyəti üçün bir fəaliyyət proqramı idi.

AŞ Avropanın siyasi həyatında mühüm rolu oynayan təşkilat olduğundan onun rəhbər orqanlarına kimlərin və hansı dövlət nümayəndələrinin seçilməsi çox böyük əhəmiyyət kəsb edir. Bu mənada 2003-cü ilin yanvar ayının 27-də Milli Məclisin deputatı, Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri İlham Əliyevin AŞ PA-nın sədr müavini və Büro üzvü vəzifələrinə seçilməsi Azərbaycanın təşkilat çərçivəsində əldə etdiyi ən böyük uğurlardan biri kimi yadda qaldı.

AŞ-nin üzvü olduqdan sonra respublikamız bu mötəbər qurumun platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb edib, təşkilatın imkanlarından istifadə etməklə problemin ədalətli həllinə çalışıb. Bu mənada İlham Əliyevin ilk addımlarından biri Ermənistanın təcavüzkar siyasətinin nəticələrinin beynəlxalq aləmə çatdırılmasından ibarət oldu. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin uğurlu fəaliyyəti nəticəsində bu istiqamətdə mühüm işlər həyata keçirildi, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı Avropaya çatdırıldı. İlham Əliyevin nümayəndə heyətinə rəhbərlik etdiyi müddətdə AŞ PA-da Azərbaycan həqiqətlərini özündə ehtiva edən 30-a yaxın sənəd hazırlanıb və təşkilatın rəsmi sənədləri kimi yayılıb.

Ümumiyyətlə, Azərbaycan bu nüfuzlu təşkilatın imkanlarından istifadə edərək Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsi istiqamətində ciddi səylər göstərib. Görülən işlərin nəticəsində bu təşkilat Ermənistanın təcavüzünü pisləyən 1416 saylı qətnamə və 1690 saylı tövsiyə qəbul edib. 1416 saylı qətnamə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycana diplomatik üstünlük verən vacib beynəlxalq sənəddir. Göründüyü kimi, AŞ məhz o təşkilatlardandır ki, respublikamız burada qısa müddətdə özünü təsdiqləyə bilib və Azərbaycan diplomatiyasının uğuru sayılan sənədlərin, xüsusən Ermənistanın işğalçılıq siyasətini pisləyən ayrıca qətnamənin qəbuluna nail olub.

Avropa Şurasına üzvlük Azərbaycanın müasir xarici siyasətinin uğurlarını özündə əks etdirən hadisələrdən biridir. Bu hadisə o dövrdə ölkəmizin beynəlxalq birlikdəki yerinin daha da möhkəmlənməsi baxımından yeni mərhələnin başlanğıcı oldu. Artıq 19 ildir ki, Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü kimi beynəlxalq məsələlərdə yaxından iştirak edir və zaman-zaman üzləşdiyi ədalətsizlikləri və ikili standartları inamla dəf edərək özünün haqq səsini bu tribuna vasitəsilə dünyaya çatdırır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***





# Vətən deyəndə...





● Çağırış

# Bir bənddə bəndlənən tarix...

**Qarabağda talan var,**
**Zülfün üzə salan var.**
**Gedirsən tez qayıt gəl,**
**Gözü yolda qalan var.**

**Bu bircə bənd indi nələri xatırlatmır bizə... Vurduqları yaraları biz unutsaq da, xislətindən əl çəkməyən, məkrli planlarını yenidən reallaşdırmaq üçün məqam gözləyən ermənilərin fitnəkarlığı... xalqımıza qarşı həyata keçirdikləri separatizm, terror aktları... özünü vətəninə əsgər seçən, döyüşə könüllü gedən Azərbaycan övladları... onların yollarına göz dikən analarının, atalarının, bacı-qardaşlarının, sevgililərinin nigaran, narahat baxışları... yada düşür...**



## Qarabağda talan var...

1987-ci illərin sonları... Biz həmin illərdə nəğmə oxuyurduq: "Qardaş olub Hayastan-Azərbaycan"... Ermənilər isə yenə ayıq tərpəndilər. Aranın qarışacağını duyar-duymaz toz basmağa qoymadıqları fitnə-fəsad dolu planlarına "əl gəzdirməkdə idilər". Yenə "Böyük Ermənistan" xülyasına qapıldılar. Yenə Azərbaycandan torpaq qoparmaq niyyətində idilər. 1905-ci ildə, 1918-ci ildə olduğu kimi, ictimai-siyasi ab-havanın kəskinləşəcəyini duyaraq hərəkətə keçdilər... Erməni separatçıları hələ 1985-ci ildə Sovet Sosialist Respublikaları İttifaqında (SSRİ) ermənipərəst Mixail Qorbaçovun hakimiyyətə gəlməsilə daha da fəallaşdılar. O vaxtadək gizli fəaliyyət göstərən erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı "Krunk" ("Durna") açıq fəaliyyətə keçdi. "Miatsum" ("Birləşmə") hərəkatı formalaşdırıldı. 1987-ci ilin axırlarından isə fitnəkar ermənilərin əməllərinin "nəticələri" göründü. Xankəndi (Sovetlər dövründə Stepanakert adlandırılırdı) və Ermənistan ərazilərində ermənilərin hücumları nəticəsində azərbaycanlı qaçqın və məcburi köçkünlərin axını başladı.

1988-ci ilin fevralından hadisələr gərginləşdi. Fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin sessiyası vilayətin statusuna baxılması və Ermənistan SSR-ə keçirilməsi haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət etdi.

Fevralın 24-də Əsgəran rayonunda erməni separatçıları iki azərbaycanlı gənci qətlə yetirdilər, 19 nəfəri yaraladılar. Həlak olan o iki soydaşımız münaqişənin ilk qurbanları oldu.

Fevralın sonlarında Azərbaycanın böyük sənaye şəhəri Sumqayıtda erməni xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik orqanlarının iştirakı ilə qabaqcadan hazırlanmış qəsdlər törədildi. Sumqayıt hadisələrinin əsl səbəbləri və səbəbkarları tezliklə bəlli oldu. Məqsəd bu hadisəni bəhanə edərək Ermənistanda yaşayan azərbaycanlıların qovulması və Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibindən çıxarılmasına nail olmaq idi. Tarixin müxtəlif dönəmlərində azərbaycanlılara qarşı həyata keçirilmiş erməni vəhşilikləri XX əsrin sonlarında yenidən tüğyan etdi. Bu dəfə erməni daşnaklarının ən böyük dəstəkçisi Qorbaçovun başçılıq etdiyi Sovet hökuməti idi.

SSRİ rəhbərliyi Azərbaycana qarşı daha bir dəhşətli cinayətə əl atdı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda qanlı qırğın törədildi. 1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Soveti dövlət müstəqilliyinin bərpası haqqında bəyanat qəbul etdi. Oktyabrın 18-də isə dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul olundu. Ancaq erməni millətçiləri azərbaycanlılara bu böyük tarixi günlərə ürəkdolusu sevinməyə imkan vermirdilər. Ermənistan Azərbaycana qarşı açıq şəkildə, ədalətsiz müharibə aparırdı. Qarabağda talan vardı...

## Zülfün üzə salan var...

Onlar sevgi yaşındaydılar. Yollarını gözəllərin məhəbbət dolu oğrun baxışları izləyirdi. Qədd-qamətlərini analarının fərəhli nəzərləri oxşayırdı. Ataları onlardan bir boy uca oğullarını məmnun-məmnun süzür, xəyallar qururdular...

Çoxu evlənməmişdi, məhəbbət dolu günlərinin həyacanını yaşayırdı. Bənövşə ətirli sevgi məktublarını hələ sevdikləri hər kəsdən gizli saxlayırdılar. Məhəbbətini hələ də etiraf etməmişdi bəziləri. Yeni evlənənləri də vardı, övlad yolu gözləyənləri də, "ata" çağrılanları da...

Ömürlərinin baharına qəfil duman çökdü...

Ermənilərin torpaq iddialarını başlanğıcda əksəriyyəti ciddi qəbul etmədi. "Erməni kimdir ki, bizdən torpaq ala?!" dedilər. Ancaq tarix təkrar olunurdu. Gözlərimiz önündə ermənilər çoxdankı arzularına çatdılar. Qərbi Azərbaycan torpaqlarından əsl sahiblərini son nəfərinədək qovdular. Dağlıq Qarabağa od saldılar. Vətən övladları bu odu söndürməli, silahsız, günahsız soydaşlarını hər cür qəddarlığı, vəhşiliyi özlərinə rəva görən yaraqlı ermənilərin hücumlarından qorumalı idilər.

Övladlar Vətən fəryadına hay verirdilər, Azərbaycanın ərazi bütövlüyü yolunda ya şəhid, ya da qazi olmağa gedirdilər...

## Gedirsən tez qayıt gəl...

Qarabağdan uzaqlarda da hər evə, hər ocağa müharibə qoxusu yayıldı. Torpaqlarımızı qorumaq üçün gedən vətən övladları düşmənlə ağır döyüşlərdə idilər. Hər gün şəhid xəbərləri gəlirdi. Bütün el-oba şəhidinə yas tuturdu. Gənclərin hiddəti coşub daşırdı. Hərbi xidmətə çağırış yaşı artıq döyüşçü yaşı hesab olunurdu. Vətənpərvər gənclərin kimisi çağırış gününü həyəcanla gözləyir, kimisi də səbr edə bilmir, milli orduya könüllü yazılırdı. Çünki torpağı viran edilən, yurdu dağıdılan, qeyrətli övladları şəhid edilən, əsir götürülən, günahsiz soydaşları girov aparılan biz idik. Ona görə Azərbaycan döyüşçülərində vətənpərvərlik ruhu güclü idi. O ruhla vuruşan döyüşçülərdən düşmən torpaq ala biməzdi. Ancaq erməni qəsbkarları fitnəkarlıqdan əl çəkməyərək sovet imperiyasından hərbi güc almaqda davam edirdi.

Canlarını Vətənə sipər edənlərimizin neçəsinin ürəyinə dəyən düşmən gülləsi sol cibində gəzdirdiyi sevdiyinin şəklindən, sevgi məktubundan keçirdi... Şəhid edilən, əsir götürülən neçə-neçə döyüşçümüzün qulaqlarında həzin bir nəğmə kimi bu sözlər səslənirdi: "Gedirsən tez qayıt gəl"... Kiminə müharibəyə yola düşəndə son görüşlərində belə söyləmiş, kiminə məktubunda belə yazmışdı sevdiyi...

## Gözü yolda qalan var...

O döyüşçülərin hər biri min-min arzu idi. Yenicə müstəqilliyinə nail olmuş Azərbaycanda hərəsi bir işin qulpundan yapışacaqdı. Qurub-yaradacaqdılar. Vətənin onlara ehtiyacı vardı.

Bir də... sevgidən pay alacaqdılar. Subaylar toy edəcək, evlilər ev quracaq, övlad böyüdəcəkdilər.

Onların hərəsi min-min ümid idi. Valideynlərinin ən böyük istəkləri onların çiynində məzara getməkdi. Ancaq atalar oğul tabutunun ağırlığını çiyinlərində deyil, ürəklərində daşıdılar... həm də ömürlük...

Elələri var ki, analarının toy boxçaları hələ də bağlı qalıb. Sevgi məktubuna nişan üzüyünü büküb ürəyinin başında saxlayanlar var. Heç birinin acı xəbərinə özlərini alışdıra bilməyib doğmaları. Əsgərinin şəhid edildiyinə, əsirlikdə həlak olduğuna hələ də inanmırlar. Hələ də gözü yolda qalanlar var...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Şəhidlər unudulmur

**Qarabağ savaşı başlayanda minlərlə Azərbaycan övladı vətən torpaqları uğrunda ölüm-qalım mübarizəsinə qalxdı. Onlardan biri də Əlövsət Vəliyev idi.**
**Əlövsət Cəfərxan oğlu Vəliyev 1968-ci il dekabrın 15-də Qubadlı rayonunun Həmzəli kəndində anadan olub. Uşaqlıqdan elmə, təhsilə marağı olduğuna görə orta məktəbdə fərqlənənlərdən idi. Rayon və respublika olimpiadalarında iştirak edən Əlövsət oxuduğu təhsil müəssisəsinə əməlli-başlı ad-san qazandırmışdı.**



# Qubadlılılar igid oğulları ilə fəxr edirlər

"Hamı yaxşı şagirddən söhbət düşəndə onu göstərirdi" deyə qardaşı Əbülfət xatırlayır. Əlövsət bütün fənləri öyrənirdi. Deyirdi ki, adam hər şeydən xəbərdar olmalıdır. Çünki elmlərin çoxluğu səni həmişə irəli aparacaq.

1985-ci ildə orta məktəbi əla qiymətlərlə bitirib Azərbaycan Dövlət Pedaqoji Universitetinə daxil olur. 1987-ci ildə hərbi xidmətə yola düşən Əlövsət vətənə dönəndə ermənilərin torpaq iddiaları artıq başlamışdı.1992-ci ilin may ayında milli ordu sıralarına daxil olan Əlövsət ilk gündən özünü təcrübəli tankçı kimi göstərir. Əlövsət Vəliyevin həm də qorxmaz və cəsarətli bir igid olması döyüş yoldaşlarına onu bir daha sevdirir. Bu cəsarətli insanın təkcə özünü deyil, hətta onun tankını belə Qubadlının bütün sərhəd kəndlərində çox gözəl tanıyırdılar. Onun tankı sonralar Zəngilan, Laçın, Cəbrayıl və Füzuli rayonlarına qədər gedib çıxır. Bu bölgələrdə uğurlu döyüş əməliyyatları keçirən Əlövsət Vəliyevi bir müddət sonra tankçılar arasında komandir kimi qəbul edənlər gündən-günə çoxalır.

Əlövsətin komandiri Dağbəyi Məhyəddinov onun şücaətindən söhbət açaraq bildirdi ki, tankı idarə etmək asan məsələ deyil. Döyüşə girməmişdən əvvəl xəritə ilə taktikanı müzakirə edərdik. Həmişə ağıllı məsləhətləri ilə seçilərdi Əlövsət. Əsgərlər tankın hansısa detalının təmirini ondan öyrənərdilər.

1993-cü il mayın 26-da Əlövsət 706 saylı hərbi hissənin 3-cü taborunun tağım komandiri təyin edildi. 706 saylı hərbi hissənin kəşfiyyat rotasından Əlövsət Vəliyev haqqında verilən arayışda yazılırdı: "1992-ci ilin may ayında Laçın işğal olunandan sonra Aşağı və Yuxarı Cicimli, Səfiyan, Aşağı və Yuxarı Fərcan, Suarası, Mazutlu kəndlərinin müdafiəsində Əlövsət öz tankı ilə bütün döyüşlərə birinci atılmış, düşmənin 25-30 may hücumları zamanı xeyli canlı qüvvəsini, bir PDM-i məhv etmişdi".

1993-cü il avqustun 15-də Qubadlı rayonu ağır günlərini yaşayırdı. Yerli qüvvələrlə birlikdə Əlövsət Vəliyevin tankçıları da gecə-gündüz ara vermədən döyüşlər aparır, düşmən hücumlarının qarşısını almağa çalışırdılar. Erməni qoşun birləşmələrinin irimiqyaslı hücumları isə daim davam edirdi. Bu döyüşlər zamanı cəsur tankçı Əlövsət Vəliyev misilsiz qəhrəmanlıqlar göstərir. Düşmənin bir neçə texnikasını məhv edən bu igid mərmi bitdikdən sonra öz tankını tərk etmir. Tankı erməni quldurlarının üzərinə yönəldir, son məqamda o, öz döyüş maşınını düşmən tankına çırpıb, hər iki texnikanı hərəkətsiz hala salaraq qəhrəmanlıqla həlak olur.

O illər artıq arxada qalıb. Bu gün də qubadlılılar öz canını doğma torpaq uğrunda fəda etmiş övladını unutmur. Onların ailə üzvlərinə qayğı ilə yanaşılır, problemləri vaxtında həll edilir. Bu günlərdə Hafiz Quliyev adına Qubadlı rayon Çaytumas kənd məktəb liseyində şəhid Əlövsət Vəliyevin anım tədbiri keçirilib.

YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev tədbirdə çıxış edərək bildirib ki, şəhid ailələrinə qayğı həmişə dövlətin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin respublikamızda şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəlmiş tədbirləri bunun bariz nümunəsidir. Qubadlı rayonu Qarabağ müharibəsində 238 şəhid verib. Onlardan 11 nəfərinə Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

Mərasimdə Əlövsət Vəliyevin keçdiyi şərəfli döyüş yollarından və göstərdiyi qəhrəmanlıqlardan söhbət açılıb. Yaxınları və döyüş yoldaşları onun göstərdiyi igidliyin heç zaman unudulmayacağını bildiriblər.

Suraxanı rayonunda 70 saylı uşaq bağçası şəhidin adını daşıyır. Onun xatirəsinə "Əfsanəvi Tankçı" adlı kitab çap olunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

● Müharibəyə "dur" deyək

**Bu gün müasir dünyamızda ən çox ehtiyac duyduğumuz, tez-tez səslənən kəlmələrdən biri sülhdür. Bunu istər ailə daxilində, cəmiyyətdə insanlar arasında, istərsə də geniş qlobal anlamda hər birimiz yaşayırıq. Eyni zamanda, ən çox arzu etdiyimiz sülhün mövcud olmasıdır. Çünki hər bir cəmiyyətin inkişafı, habelə insan hüquqlarının səmərəli təmin olunması, ilk növbədə, sülh və əmin-amanlığın bərqərar olmasından asılıdır. Münaqişə və müharibələr insan həyatına, onların ən ali hüququna - yaşamaq hüququna birbaşa təhdiddir. Müharibələr bir çox mədəniyyət nümunələrinin, tarixi, milli, maddi dəyərlərin məhvinə səbəb olur. Çox təəssüf ki, işğalçı Ermənistanın sayəsində Azərbaycan da bu sarıdan əziyyət çəkən ölkələr sırasındadır...**



# Münaqişə və müharibə zonalarında yaşayan uşaqların sülh arzusu

Beynəlxalq humanitar hüquq münaqişə və müharibələr zamanı mülki əhalinin, xüsusən yaşlı, qadın və uşaqların müdafiəsi ilə bağlı qaydalar təklif edir. Döyüş əməliyyatlarında iştirak etməyən və ya artıq iştirak edə bilməyən insanların həyatlarına və onların fiziki, mənəvi toxunulmazlığına hörmətlə yanaşılmalıdır. Belə şəxslər bütün hallarda qorunmalı və onlara heç bir fərq qoyulmadan insani rəftar edilməlidir.

Məhz insan hüquqları və insani dəyərlərin kontekstində dayanan sülh məfhumu bu gün bəşəriyyətin həllini gözləyən ən vacib problemlərdən biridir. Yaşadığımız dövrdə qarşımızda duran mühüm məqsəd istər ailədə, istərsə də cəmiyyətdə, müxtəlif etnik qruplar, dövlətlər, millətlər arasında ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqdır. Başqa sözlə, hər zaman insanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək zərurəti vardır.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının preambula hissəsində ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək Azərbaycan dövlətinin ülvi niyyəti kimi təsbit olunmuşdur.

Ümummilli Liderin sülhsevər siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, Cənubi Qafqazda ən qüdrətli və güclü orduya malik olan Azərbaycan dövləti ilk növbədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüququn hamılıqla tanınmış ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında qeyd-şərtsiz həll olunması sahəsində zəruri addımlar atır. Bəllidir ki, Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizdən çoxu işğal olunmuş, bir milyondan çox soydaşımız öz doğma ata-baba yurdlarından zorla qovularaq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, təhsil, səhiyyə, mədəniyyət ocaqlarımız, tarixi-dini abidələrimiz tamamilə dağıdılaraq yerlə-yeksan edilmiş, terrora məruz qalmışdır.

Bu gün də işğalçı erməni hərbi birləşmələri işğal altındakı torpaqlarımızda kütləvi yanğınlar törətməklə, sərhədyanı kəndlərə müxtəlif silahlardan atəş açmaqla mülki əhaliyə ziyan vurur, o cümlədən dinc əhali girov götürülür, insanların həyatına təhlükə yaradır, onların yaşamaq, azadlıq, mülkiyyət, təhlükəsiz yaşamaq və digər hüquqlarını pozur.

BMT-nin məlumatına görə, 2018-ci ildə dünyadakı münaqişələr nəticəsində rekord həddə günahsız uşaqlar dünyasını dəyişib və yaralanıb. Bir sıra münaqişə zonalarında uşaqlardan əsgər kimi istifadə edilməkdədir və belə hallar Somali, Nigeriya və Suriya kimi münaqişə zonalarında müşahidə edilməkdədir. 2018-ci ildə 8 min uşaq döyüşlərdə iştirak edib. Uşaqlar həmçinin qaçırılma və cinsi zorakılığa da məruz qalırlar. 2018-ci ildə 933 uşaq cinsiyyətindən asılı olmayaraq zorakılığa məruz qalıb. Ötən il ümumilikdə 12 min uşaq həlak olub və xəsarət alıb.

UNICEF Suriya müharibəsinin əvvəlindən bəri həlak olmuş uşaqların sayına görə 2016-cı ili rekord vurmuş il adlandırıb. Qeyd edilən ildə Suriyada birbaşa hərbi əməliyyatlar nəticəsində 18 yaşadək olan 650-dən çox uşaq həyatını itirib. Və bu, təkcə rəsmi rəqəmlərdir, real rəqəmlər isə, bir qayda olaraq, dəfələrlə çox olur. Daha bir neçə yüz uşaq isə dərmanların çatışmazlığından həyatını itirib.

UNICEF uşaqlarla bağlı daha bir kədərli rekordu qeydə alıb. Belə ki, İŞİD 850 uşağı əlinə silah almağa məcbur edib.

2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində ermənilər tərəfindən öldürülən 2 yaşı hələ tamam olmamış Zəhranın faciəsi bizi son 20 ildə azərbaycanlı uşaqların öldürülməsi, girov götürülməsi ilə bağlı yaddaşımızı təzələməyə vadar etdi.

1988-1994-cü illərdə erməni terror qrupları və silahlı birləşmələri minlərlə Azərbaycan uşağının vəhşicəsinə qətlə yetirilməsinə, yaralanmasına, itkin və əsir düşməsinə, eləcə də bir və ya hər iki valideynini itirməsinə səbəb olmuşdur. Bu barədə yüzlərlə fakt vardır.

1988-1989-cu illərdə indiki Ermənistan ərazisində yaşayan 250 mindən çox azərbaycanlının qovulması, yəni etnik təmizləmə əməliyyatları nəticəsində qətlə yetirilən 216 azərbaycanlının 23-ü uşaq olmuşdur. 1992-ci il fevralın 26-da baş vermiş Xocalı soyqırımı nəticəsində öldürülənlərdən 63-ü uşaqdır. Həmin faciə zamanı 25 uşaq hər iki valideynini, 130-u isə bir valideynini itirmişdir. Ümumilikdə Qarabağ münaqişəsində 195 azərbaycanlı uşaq öldürülüb.

1988-1994-cü illərdə itkin düşmüş 4566 azərbaycanlıdan 53-ü uşaq olub. 1 yanvar 2014-cü ilə olan məlumata görə, əsir və girov götürülməsi məlum olan 877 nəfərdən 22 uşaq bugünədək Ermənistanda əsirlikdədir.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) təşəbbüsü ilə 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar Tərtərə - cəbhə xəttinə yaxın kəndlərdə yaşayan uşaqlara baş çəkmək və onların bayramını təbrik etmək təşəbbüsünə qoşulmuşduq. Tərtərin cəbhə xəttinə yaxın olan Həsənqaya kəndinin və Şıxarx qəsəbəsinin uşaqları fondun beynəlxalq auditoriya üçün çəkdiyi və BMT-nin Cenevrə ofisində təqdim olunan videonun baş qəhrəmanları idilər. O qısa filmdə kiçik yaşlı azərbaycanlı qızın "Əgər sənin əlinə nə isə etmək səlahiyyəti verilsəydi, ilk növbədə nə edərdin?" sualına "Mən sülh yaradardım, sülh olsun" demişdi. O sülh istəmiş, sülh yaratmağı arzulamışdı.

Bu gün torpaqlarımızı işğaldan azad etməyə qadir güclü ordumuz var. Lakin buna baxmayaraq, Azərbaycan dövləti işğal altındakı ərazilərimizin sülh yolu ilə azad edilməsinin tərəfdarı olduğunu dəfələrlə sübuta yetirmiş, sülhməramlı siyasətə sadiq qalmışdır. Çünki müstəqil Azərbaycan sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə, eyni zamanda, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə sadiq olan hüquqi dövlətdir.

***Zeynəb KAZIMOVA***

● Tədbir

# Vətən mücahidləri

## "Aprel döyüşləri salnaməsi"ndə şəhidlərin ömür kitabları vərəqlənir

**"...Hər kəsin bir ömür kitabı var. Kimisində o kitabın səhifəsi çox, kimisində az olur. Şəhidlərin ömür kitabının səhifəsi az olsa da, hər sətri dəyərli, mənalıdır: qəhrəmanlıqdan bəhs etdiyi üçün. Onların həyatlarına nəzər saldıqca Vətənimizi daha çox sevirik. Çünki Vətən məhəbbətinin şəhadətə ucaltdığı şəhidlərin sevgisi daha müqəddəsdir..."**




Bu sətirlər canını Vətən yolunda qurban verməkdən çəkinməyən şəhidlərimizdən birinin ömürnaməsindən götürülüb. Əslində, bu fikirləri ümumiləşdirərək Manya Səxavətqızı şəhidliyin müqəddəsliyini ifadə edib. "Aprel döyüşləri salnaməsi" - "Vətən mücahidləri" kitabında belə dəyərli və ibrətamiz fikirlər az deyil.

Yeni nəşrlər sırasına əlavə edilən toplulaların müəlliflərinin hər üçü gənc xanım yazarlardır. "Vətən mücahidləri" (I və II hissə) bədii publisistik toplunu müəlliflər haqlı olaraq "Aprel döyüşləri salnaməsindən" adlandırıblar. Burada Aprel şəhidlərinin bir çoxunun qısa və şərəfli ömür yollarından söz açılır.

"Vətən mücahidləri"ni araya-ərsəyə gətirən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, "Zərif kölgələr" layihəsinin həmmüəllifi Gülnarə Sadiq, Manya Səxavətqızı və Aysel Nəsirzadədir.

Müəlliflərin hər üçü çətin, lakin müqəddəs bir yolun sonuna gəlib çıxıblar. Həmmüəlliflərdən olan Gülnarə Sadiq deyir: "Aprel zəfərini bizlərə şəhidlərimiz yaşadıb. Saxta erməni mifini darmadağın edən Azərbaycan Ordusu 2-3 günlük əməliyyatda bir daha təsdiqlədi ki, düşmən necə aciz və qorxaqdır. Bunu yazmaq, tarixiləşdirmək isə əli qələm tutanların borcudur. Biz bu amalla şəhidlərimizin şərəflə getdikləri yola üz tutduq və onların bir dastanlıq qəhrəmanlığının şahidinə çevrildik..."

2016-cı ilin Aprel döyüşlərinin zəfər salnaməsi sayılan "Vətən mücahidləri" (Aprel döyüşləri salnaməsindən) adlı kitabların Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin iclas zalında Nərimanov Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə təqdimatı keçirilib. Tədbirdə çıxış edən Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, layihənin maliyyə dəstəkçisi Bəhruz Məmmədov, şəhid ailələri üzvlərindən Şahin Məmmədov, Nəcibə Axundova, Sabir Mirzəyev, Elçin Əsədli, ilahiyyatçı Ramil Bədəlov, şair-publilsist, DGTYB-nin sədri Əkbər Qoşalı və digərləri bildiriblər ki, gənc xanım yazarların ortaya qoyduqları hər iki kitabın dəyəri onların həcmində deyil, səhifələrində ürək yanğısı və vətənpərvərliklə qələmə alınan oçerklərdə, şəhidlərimizin müqəddəs ruhlarına həsr edilən şeirlərdədir.

Aysel Nəsirzadə onu da vurğulayıb ki, aylardır gecə-gündüz çəkdikləri zəhmət, nəhayət, öz nəticəsini verdi: "Hər sətrinə göz yaşı daman "Vətən mücahidləri" neçə-neçə bizə dəstək olan digər qələm adamlarının da yaxından iştirakı ilə araya-ərsəyə gəldi ki, bu da rəmzi olaraq biz yazarların vətənpərvərlik mövzusunda birliyinin simvoludur. Birlikdə çıxdığımız yolda ən böyük dəstəyi şəhid ailələrindən gördük".

Tədbirdə Nərimanov Rayon Gənclər və İdman İdarəsi yeni təşəbbüs irəli sürüb: "Hər üç xanım yazardan birlikdə bu rayondan Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin də ömür yoluna işıq salacaq bir kitab yazmalarını istərdik".

Sonda respublikanın Əməkdar artisti, şəhid ailəsi Aybəniz Haşımovanın quruluşunda təqdim edilən ədəb-bədii kompozisiya tədbir iştirakçılarına kövrək hisslər yaşadıb.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## Zəlimxan Yaqub - 70

# Arzusu insanları ucaltmaq idi

1950-ci ilin yanvarında Borçalıda dünyaya gəlməyini taleyinin ən xoş yazısı hesab edirdi Zəlimxan Yaqub. "Çünki o yerlərdə təbiət özü, dağlar özü möcüzədir" deyirdi. Şair kimi yetişməsində o kənd, o mühit çox böyük rol oynadı. Nağıllarımızı, dastanlarımızı, əfsanələrimizi, bayatılarımızı ilk dəfə o yurdun müdrik insanlarından eşitdi. Sözə, saza o yurdda heyran oldu. İlk şeirini orada qələmə aldı. Ona görə sinəsi tükənməz söz xəzinəsiydi.

### "Dünyanın nə gözəl vaxtı görüşdük!"

Yaşının altmışında bir misrasından tutub "Zəlimxan müəllim, ömür yaşdan nələr çəkib?" deyə soruşmuşduq. O zaman səsi, sözü kimi özü də dağ çayları kimi gurlayan, həyat eşqi coşub-daşan şair söyləmişdi: "Kəndi Kəpənəkçi, mahalı Borçalı, paytaxtı Bakı, Vətəni Azərbaycan, dünyası Türk Dünyası, kainatı bütün bəşəriyyət olan bu ömür sazın, sözün, məclislərin, şifahi xalq ədəbiyyatının, yolların, səfərlərin ömrüdür. Bundan belə evdə əyləşib o ömürlə bağlı yüz kitab yazsam, yenə çatdıra bilmərəm". O vaxtlar ölümün hənirtisini hər zaman yan-yörəsində duyduğunu desə də, yaşamağa inamının ondan daha güclü olduğu aşkar idi.

*Abadlıq gətirdi bir viranlığa,*
*Gəlişin son qoydu lal qaranlığa,*
*Zəlimxan yenə də çatdı xanlığa,*
*Güldü gözəlliyin taxtı, görüşdük.*
*Ay salam göndərdi, Gün əhsən dedi*
*Dünyanın nə gözəl vaxtı görüşdük!*

deyən Zəlimxan Yaqub keçdiyi yola, o yolda ondan asılı olmayaraq qoyub gəldiyi və onunla gələn insanlara çox bağlı idi. Özünün dediyi kimi, maddi deyil, mənəvi cəhətdən zəngin olan bir evdə böyümüşdü. Atası Yusif riyaziyyat müəllimi idi. Çox güclü mütaliəsi vardı. Anası Güllü xanım evdar qadınıydı. 1937-ci ildə, on yaşı olanda atasının - Sərdaroğlu Qurbanın həbs edilərək sürgünə göndərildiyini unutmamışdı Güllü xanım. Göz yaşlarını, qəmini, kədərini dilindən düşməyən bayatılarla anladırdı.

Şair danışırdı ki, ana babasını varlı-pullu olduğu üçün sürgün etməyiblər. Savadlı, qabiliyyətli, gözəl saz çalan, oxuyan, yaraşıqlı, məclislərdə boyu görünən, səsi eşidilən Sərdaroğlu Qurban yaşca cavan olsa da, kəndin say-seçmə ağsaqqallarından sayılıb. Elə bunun da güdazına gedib.

Anasının gözlərindəki o qüssə, o həsrət Zəlimxan Yaqubun bu dünyada görüb anladığı ilk kədər payı idi. Deyirdi: "Anamın nisgili, kədəri, atamın ziyalılığı, zəngin mütaliəsi başlanğıcım olub. Mənim üçün yollar ordan başlayıb. Yəni Zəlimxanı dünyaya gətirən ailə dünyanın bir parçası idi. Orda həm kitabın nuru, atanın qayğısı, həm ananın duru laylaları, dilinin duası olub. Gözümü açandan, ayağım yer tutandan məclislərdə, böyüklərin, ustad aşıqların, müəllimlərin yanında olmuşam. Baxışımdan, duruşumdan, sifətimin cizgilərindən, hərəkətimdən hiss eləyiblər ki, nəsə bu, qeyri-adi adamdır. Hamı başıma sığal çəkib. Soruşublar: "Ay oğul, bura gəl, başına dönüm, o, dünən bir söz deyib, nə təhər idi?", "Bu şeir necə idi?".

İlk şeirini 5-ci sinifdə oxuyanda yazıb. Hələ bitkin şeir olmasa da, anası oğlunun qabiliyyətini görə bilib, dayısına - Əməkdar müəllim Rəşid Acalova söyləyib. Rəşid müəllim şagirdindən - Zəlimxan Yaqubdan yazdığı şeiri oxumasını istəyib. Şeiri dinlədikdən sonra bacısı qızına söyləyib: "A Güllü, görərsən, bu, gələcəyin böyük şairi olacaq".

El-obaya hay-küy düşüb: "Yusif müəllimin oğlu şair olub" deyiblər. Kimi söyləyib vergi, kimi də deyib buta verilib. "Buta məsələsi olmamışdı?" Zarafatla verdiyimiz suala ciddi cavab vermişdi şair: "Yox, buta-zad olmamışdı. Amma iki yuxunu təkrar-təkrar görürdüm. Bir həmişə görürdüm saz çalıram. Bir də yuxularda ömrüm boyu uçmuşam. Bu dağdan-o dağa... O uçuş bu gün də var. Yuxuda haralara qonmuşdumsa, həyatda onların hamısını gördüm. Mən o xoşbəxtlərdənəm ki, xəyalım gəzən yerləri özüm də gəzdim. Bağdaddan Buxaraya, Səmərqəndə, Nyu Yorka, Vaşinqtona, Yaponiyayadək..."

Oxuduğu orta məktəbdə adı əlaçı şagirdlərin siyahısında olsa da, doğrusunu yenə şair özü deyirdi: "Əlaçı deyildim. Riyaziyyatı çox zəif bilirdim və riyaziyyat müəllimləri həmişə mənə "5" qiymət verirdilər. Deyirdilər, sən get ədəbiyyatla məşğul ol. Əlaçı idim, amma yalançı əlaçı idim".

### "Nifrətin axırı düşmənçilik, məhəbbətin axırı dostluqdur"

Orta məktəbi 1967-ci ildə bitirib. Bakıya gəlib. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Kitabxanaçılıq fakültəsinə daxil olub. Şeirlərini ilk dəfə 1971-ci ildə "Azərbaycan gəncləri" qəzetində şair Hüseyn Arif təqdim edib və ona uğurlu yol arzulayıb. O vaxtadək yuxularında gördüyü, əli çatmayan, ideal saydığı böyük şairlərlə dostluq etmək, oturub-durmaq, onlara şeir oxumaq, şeirlərini dinləmək xoşbəxtliyinə bu şəhərdə çatıb. Zəlimxan Yaqub fəxrlə danışırdı: "Yatanda yuxuma da girməzdi ki, gün gələr Osman Sarıvəlli, Hüseyn Ariflə müəllim-tələbə, ata-oğul olaram. Borçalıdan gətirdiyim məhəbbətin burda üstünə məhəbbət gəldi. Meydanım genişləndi, sözüm tutuldu, başıma qapaz vuran olmadı, əksinə, sığal çəkdilər, bağırlarına basdılar. Bu siyahını başlasam, əlli adamın adını çəkə bilərəm.



Hamısından xoş xatirələr qalıb. Azərbaycanda xalq məhəbbəti, el sevgisi qazanan, dövlətdə, millətdə, sənətdə böyük nüfuz sahibi olan şəxsiyyətlərlə oturdum-durdum. Bu da mənim yaddaşımın hesabına olub. Onlar görəndə ki, bir şair şeirini oxuyur, yanılanda arxasını mən deyirəm, heyrətə gəlirdilər. Tofiq Bayram, Söhrab Tahir, Məmməd Araz, Hüseyn Arif, Osman Sarıvəlli də belə olub. Onların kitabxanaları yansa, kitablarını gəl mənim yaddaşımdan köçür. Şairlərə ilahi sevgim, məcnunluğum həmişə olub".

Ədəbiyyatda böyük-kiçikliyin gözlənilməsinin tərəfdarı idi. "Biz o tərbiyəni görmüşük, - deyirdi. - Özümüzdən əvvəlki nəslə böyük ehtiramımız olub. İndi gəncliyə də qayğımız var. Amma çox təəssüflər olsun, ötən əsrin 60-cı illərinin nəsli deyilən nümayəndələr 1980-1990-cı illər ərəfəsində bir dedi-qodu başladılar və bu, cavanlara o dəqiqə sirayət etdi. Bu günün cavanlarının səksən faizi yaradıcılıqla, mütaliə ilə yox, bir-birini söyməklə, qəzetdə təhqir etməklə məşğuldur. Bu, çox ağrılı məqamdır. Ədəbiyyat ədəb sözü ilə başlayır. İnsanlar arasında hörmət, ehtiram olmalıdır. Bunlar olmayan yerdə ədəbiyyat yoxdur. Xoş söz eşitməsən, xoş münasibət görməsən, hansı enerji ilə yazacaqsan? Gərək adət-ənənəyə, kökə, yaddaşa, tarixə, keçmişə ehtiramla yanaşasan. Bu, ədəbiyyatda da davam etməlidir. Etməyəndə qırılır və arada uçurum yaranır. İstedadlı hansı sahədə yazsa, böyük uğur olacaq. Burada janr, forma yox, məzmun, mahiyyət əsasdır. Bir də xeyirxah niyyətlə yaşamaq lazımdır. Belə olanda nəticə gözəl olur. Nifrətin axırı düşmənçilik, məhəbbətin axırı dostluqdur".

### "Mənəm haqqın aşığı"

Dörd övlad böyüdüb tərbiyə etmişdi. "Necə hərəkət eləyirsən, övladın, nəvən də elə davranır, - deyirdi. - Otuz ildən artıqdır ailə sahibiyəm. Atama qarşı necə olmuşamsa, övladlarımdan da elə münasibət görürəm. Ailə sağlam olmalıdır. Birdəfəlik, birmənalı şəkildə bilin, kimin yumruğu havadadırsa, kim ürəklə danışırsa, deməli, o, evdəki qeyrətli qadınla, sağlam ailə ilə bağlıdır. Ailəsində çat olan adam heç vaxt ürəklə danışa bilməz".

Onu saatlarla yorulmadan dinləmək olardı. Duzlu-məzəli söhbətləri də vardı. Həm özü, həm də başqa şairlər, yazıçılar barədə lətifələr danışırdı. "Şair folklorlaşa bilmirsə, deməli, o, şair deyil", - deyirdi.

Həyatda bir idealı vardı: insanları ucaltmaq. Danışırdı ki, kimin haqqında danışmışamsa, onu yüksəltmişəm: "Yəni insandırsa, o yüksəlməyə layiqdir. Axı insanın nə qədər ömrü var? Niyə bir-birimizi didməliyik? Hamımız bu dünyada qonağıq, gedəcəyik o dünyaya. Qonağa hörmət lazımdır. Gözəllə, gözəlliklə, dostla, eloğluyla yaşa, məclislərdə boy göstər, qoy millət feyziyab olsun. Biz kimik ki? Göydə Allah var, hər şeyi O özü yerbəyer eləyəcək". Ona görə yazırdı şair:

*Mənəm haqqın aşığı,*
*Söz haqqın yaraşığı.*
*Eşqim Allah işığı,*
*Haqq adlı dostdan gəldim.*

Həyatının başlanğıcından bir cığır tutdu. O cığır ədəbiyyatın müqəddəs yoluna qovuşdu, əbədiləşdi. O, gənc yaşlarından sevilən şair idi. Şeirləri dillər əzbəridir. Möhkəm, sarsılmaz, həmişə xəstəliyə meydan oxuyan şair gün gəldi çarəsiz xəstəliklərlə yoldaşlıq etdi. Həyatı hər zaman hamar keçməmişdi. Gördüyü çətinliklər, qarşılaşdığı nadanlarla, laqeydlərlə mübarizələrin ağrıları idi bəlkə sonralar canında dolaşan, həkimlərin dilindən eşitdiyi müxtəlif adlı xəstəliklər...

Zəlimxan Yaqub 2016-cı il yanvarın 9-da gözlərini bu dünyaya əbədi yumdu. Yanvarın 11-də Fəxri xiyabanda torpağa tapşırıldı. Son mənzilə çiyinlərdə gedən şair sevənlərinin könlündə geri döndü...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Yalçın Əlizadə - 80

# Şəxsiyyət və mənəviyyat nümunəsi

Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin hansısa bir xoş sorağını, tələbələrin, ya müəllimlərin uğurunu, xüsusən də dövləti təltiflərini və yubileylərini eşidəndə bu müqəddəs ocağın məzunlarının da sevinci birə beş artır.



Harada işləməsindən, hansı vəzifənin sahibi olmasından asılı olmayaraq, onlar sevindirici nailiyyətlərini bir-biri ilə paylaşır, jurnalist kimi yetişmələrində əməyi olan o müəllimlərin şəninə ürəkdolusu xoş sözlər deyirlər. Jurnalistika fakültəsində çalışan gözü-könlü tox, xeyirxah və qayğıkeş müəllimlərin hamısının adını bir-bir sadalasaq, bəlkə də sizləri yormuş olarıq. Xeyirxah və qayğıkeş sözünü təsadüfən işlətmədik. Yəqin ki, fakültənin 1970-ci illər məzunlarının yadındadır. O zaman Jurnalistika fakültəsi indi Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) fəaliyyətdə olan binasında yerləşirdi. Azərbaycan dilini tədris edən Rəsul müəllim birinci kurs tələbələrinin ilk dərs gününü təbrik etdikdən sonra xüsusən də oğlanlara xitabən deyirdi: "İçərinizdə Bakıya ilk dəfə gələnlər çoxdur, bilirəm, bu fakültənin tələbələri çalışqan və fədakar olurlar, dərsinizi yaxşı oxuyacaq, universiteti də bitirəcəksiz... Amma bir tövsiyəm var, əli ilə pəncərədən küçəyə tərəf işarə edərək dərsə gələndə, gedəndə bu "Kommunist" küçəsindən (indi "İstiqlaliyyət") keçəndə tramvaydan ehtiyatlı olun, o yana-bu yana çox baxmayın..."

Yumor hissi ilə deyilmiş bu fikirlərin arxasında nə qədər böyük səmimiyyət və canıyananlıq olduğunu açıqlamağa yəqin ki, ehtiyac yoxdur. Bax, bu fakültənin saathesabı müəllimlərindən tutmuş laborantına və dekanına qədər hamı tələbələrə özəl qayğıları, təmənnasız münasibətləri ilə fərqlənirdilər. Belə müəllimlərdən biri də bu günlərdə 80 yaşının şöləsi respublikanın bütün mətbuat orqanlarında görünən pedaqoq-alim, ustad jurnalist, professor Yalçın Əlizadədir.

Xatırladaq ki, yubilyar Yalçın Əlizadə 80 il əvvəl, 1940-cı ilin yanvarında qədim Gəncədə dünyaya göz açıb. 1957-ci ildə Bakı şəhəri 132 saylı orta məktəbi bitirib. Özünün dediyi kimi, hələ orta məktəbdə oxuduğu vaxtlardan bu peşəyə könül verib. 1962-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin jurnalistika şöbəsini bitirəndən sonra Azərbaycan radiosunda gənc mütəxəssis kimi jurnalistlik fəaliyyətinə başlayıb. Doqquz il burada müxtəlif vəzifələrdə çalışıb - reportyor, redaktor və şöbə müdiri olub. Yaxşı jurnalist kimi formalaşıb, sonra "Xəbərlər" baş redaksiyasının baş redaktoru vəzifəsinə irəli çəkilib. O illərdə Azərbaycan radiosunda siyasi icmalçı kimi çıxış edən Şirməmməd Hüseynov Yalçın Əlizadənin nəzəri biliyinə, bu peşəyə olan istəyinə, yaradıcılıq potensialına yaxından bələd olaraq onu dekanı olduğu Jurnalistika fakültəsinə müəllim dəvət edib. Bundan sonra Y.Əlizadə jurnalist taleyini birdəfəlik bu fakültəyə bağlayıb.

Y.Əlizadə fakültəyə qədəm qoyduğu ilk günlərdən pedaqoji və elmi fəaliyyəti ilə ona olan etimadı doğrultmağa, fakültənin nüfuzunu yüksəltməyə çalışıb. O zaman Yalçın müəllim bizə "Televiziya və radiojurnalistikasının əsasları"ndan dərs deyirdi. Mühazirələri o qədər maraqlı və canlı keçirdi ki, 90 dəqiqəlik vaxtın nə zaman başa çatdığını hiss etmirdik. Bəzən elə dərsin ortasındaca tələbə-aparıcı tərəfmüqabili - tələbə yoldaşı ilə "verilişi" davam etdirərək televiziya və ya radio üçün müsahibə götürməyin incəliklərini, fərqli cəhətlərini əyani olaraq öyrənirdik. Bu seminarlarda biz tələbələr respublikamızın məşhur televiziya və ya radio aparıcılarının simasında hazırlığımızı, qabiliyyətimizi nümayiş etdirirdik. Çünki Yalçın müəllimin mühazirələrində mövzu ilə bağlı bizə öyrədəcəyi məqamları, problemləri televiziya və radiodan gətirdiyi misallarla o qədər dolğun təhlil edirdi ki, elə bilirdik biz də bu verilişin iştirakçısıyıq. Seminar dərslərimiz bəzən həftənin müəyyən günləri Azərbaycan radiosunun səsyazma studiyasında və müxtəlif şöbələrində davam etdirilirdi. Yalçın müəllimin dəstəyi sayəsində tələbə-jurnalistlərin nəzəriyyə ilə təcrübənin vəhdətindən yaranan verilişləri radioda səslənəndə hamımızda məmnunluq doğururdu. Məhz bu məmnunluğun nəticəsi idi ki, fakültədə, xüsusən də qızlar arasında televiziya jurnalistikasına meyil edənlər çox idi.

O illərdə radio və televiziya ixtisasına ciddi ehtiyac duyulduğundan Şirməmməd Hüseynov ümidlərinin reallaşdığını görüb fakültədə Televiziya və radio kafedrasını yaratmağa nail olmuşdur. Kafedraya əvvəl Tofiq Rüstəmov, sonra isə Yalçın Əlizadə rəhbərlik etmişdir. Xatırladaq ki, Yalçın Əlizadə müəllim, baş müəllim, kafedra müdiri, hətta bu fakültənin dekanı olanda da təvazökar və obyektiv müəllim mədəniyyətinə malik ziyalı olaraq yüksək təşkilatçılıq bacarığı ilə seçilmişdi. Müəllim adını və nüfuzunu həmişə uca tutan Yalçın Əlizadəni tələbələrinə sevdirən həm də sadə, səmimi, mədəni və təvazökar olması idi.

Jurnalistika fakültəsinin məzunu olmuş peşəkar qələm sahibləri yubilyar müəllimləri haqqında yazmağı, danışmağı özlərinə mənəvi borc bilirlər. Yalçın müəllimin yetirmələrindən olan professor Qulu Məhərrəmli yazır: "Elmi, biliyi, şəxsiyyəti, mənliyi ilə çoxlarına nümunə olub. Buna görə də jurnalistika aləmində, ali təhsil sistemində Yalçın müəllimi nüfuzlu şəxsiyyət və mənəviyyat adamı kimi tanıyır və ehtiram göstərirlər".

Yazıçı-publisist, "Gəncənin səsi" qəzetinin baş redaktoru Rəfiqə Sadıqova deyir: "Uşaqlıq illəri Gəncədə keçmiş Yalçın Əlizadə Gəncə ədəbi mühitində, Gəncəbasar jurnalistləri arasında da böyük nüfuza və hörmətə malikdir. Yadımdadır, mən Jurnalistika fakültəsində oxuyanda Yalçın Əlizadə fakültəyə təzə gəlmişdi. Səliqəli geyimi, mədəni davranışı, xoş rəftarı ilə tələbələrin diqqətini çəkirdi. Yalçın müəllimin Gəncəbasar bölgəsində yerli qəzet və jurnallarda, nəşriyyat işində, radio qovşağı və televiziyada çalışan tələbələri çoxdur. Bu çoxluq böyük sevgi ilə ömrünün 80, pedaqoji fəaliyyətinin 49 ilini şərəflə başa vuran müəllimimizi ürəkdən təbrik edir. Çox qürurluyuq ki, professor Yalçın Əlizadənin tələbəsi və bu fakültənin məzunlarıyıq".

Türkiyədən bu təbriklərə qoşulan Jurnalistika fakültəsinin məzunu, filologiya elmləri doktoru, professor Tamella Əliyeva "facebook" səhifəsində yazır: "Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən tədbirə dəvətli idim. Tədbir ərəfəsində məzunu olduğum Jurnalistika fakültəsini də ziyarət etdim, müəllimlərimlə görüşdüm. Biz tələbələrin yanında xətri dünyalar qədər əziz olan professor Yalçın müəllimlə telefonla danışa bildim. Səsini eşitdim, çox sevindim. Bilsəydim, elə onda sevimli müəllimimi yubiley münasibətilə hamıdan əvvəl mən təbrik edərdim. Yalçın müəllimi ürəkdən təbrik edir, ona həyatda ən şirin nemət olan cansağlığı arzu edirəm".

Xatırladaq ki, 80 yaşını böyük sevgi ilə qeyd etdiyimiz müəllimimiz daim axtarışda olan yenilikçi jurnalist kimi radiojurnalistikanın nəzəri problemləri ilə yaxından maraqlanmış, onun problemlərini tədqiqata cəlb etmiş və bununla da Azərbaycan radiojurnalistikasının nəzəri bazasını daha da zənginləşdirmişdir. Onun ərsəyə gətirdiyi "Radiojurnalistikanın əsasları" (1991), "Azərbaycan efiri - tarix və müasirlik" (professor Qulu Məhərrəmli ilə müştərək) (2006), "Ədəbi redaktə" fənninin proqramı" (bakalavr hazırlığı üçün) (2012), "Radio jurnalistikası: təməl bilikləri" (2013) kimi elmi-nəzəri əsərləri bu gün də bu sahənin tədqiqatçılarının və tələbə-jurnalistlərin stolüstü kitabıdır.

Professor Yalçın Əlizadənin elmi-pedaqoji fəaliyyəti dövlət tərəfindən də yüksək qiymətləndirilmişdir. O, 1966-cı ildə "Qızıl qələm" mükafatı laureatına, 1989-cu ildə Əməkdar jurnalist fəxri adına, 2000-ci ildə Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdür. Dövlətimizin və xalqımızın müstəqilliyinin və işıqlı gələcəyinin tərənnümçüsü olan vətənpərvər və milli ruhlu jurnalist kadrların hazırlanmasında əməyi olan Yalçın Əlizadənin zəngin elmi-pedaqoji fəaliyyəti Prezident İlham Əliyev tərəfindən də yüksək dəyərləndirilmişdir. Prezidentin 25 noyabr 2019-cu il tarixli sərəncamı ilə Bakı Dövlət Universitetinin 100 illiyi və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir. "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019) Azərbaycan Respublikasının yubiley medalı"na da layiq görülmüşdür.

Şəxsiyyət və mənəviyyat nümunəsi kimi tanınan müəllimimizi - professor Yalçın Əlizadəni 80 illik yubileyi münasibətilə təbrik edir, ona cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## ADAU-100

# Gənclərin kənd təsərrüfatı mütəxəssisi olmağa maraqları ildən-ilə artır

Bir əsrə yaxın şərəfli yol keçən Azərbaycan Dövlət Aqrar Universiteti ölkəmizin aqrar sektoru üçün minlərlə yüksək ixtisaslı kənd təsərrüfatı mütəxəssisi hazırlayıb və bu gün də bu ali təhsil müəssisəsi kadr hazırlığında öz sözünü deyir. Əvvəlki illərdən fərqli olaraq indi burada bazar iqtisadiyyatına rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanması üçün geniş imkanlar yaradılıb. Müasir şəraitdə kadr hazırlığına yanaşma da tamamilə fərqlənir.

Son illər aqrar sahənin inkişafına göstərilən diqqət və qayğı bu ali təhsil müəssisəsinin də sürətli inkişafına səbəb olub. Ölkə rəhbərinin göstərdiyi qayğının nəticəsidir ki, son 7 ildə universitetdə xarici qonaqları da heyrətə gətirəcək işlər görülüb. Azərbaycan standartları çərçivəsində iki tələbə evi istifadəyə verilib. Heyvandarlıq və atçılıq kompleksləri, quşçuluq, balıqçılıq, arıçılıq tədris mərkəzləri, baytarlıq və bitki klinikaları yaradılıb, ilin bütün fəsillərində məhsul yetişdirmək üçün istixanalar fəaliyyət göstərir. Hazırda isə ən böyük tədris korpusunun və peşə liseyinin inşası davam etdirilir.

Zamanın tələbindən yaranan yeniliklərə, maddi-texniki bazaya, müasir tədris və təcrübə şəraitinə, laboratoriyalara malik olan universitetə gənclərin marağı ildən-ilə artır. Bunu son illər bu ali təhsil ocağına qəbul olunan tələbələrin say və keyfiyyət tərkibində də görmək olar. 400-670 arasında bal toplayan abituriyentlər arasında Azərbaycan Dövlət Aqrar Universitetini seçənlərin sayında artım qeydə alınmışdır. Universitetdə professor-müəllim heyətinin tərkibi cavanlaşmış, perspektivli və xarici dilli mütəxəssislərin sayı artmışdır. Artıq 6000-dək tələbəsi olan ADAU-da bu gün Azərbaycan dili ilə yanaşı, 10 ixtisasda rus, 6 ixtisasda ingilis dillərində tədris aparılır. 14 ixtisas üzrə mütəxəssis hazırlığı yalnız dövlət sifarişi əsasında həyata keçirilir.





Tədrisdə vacib məsələlərdən biri də istehsalat təcrübəsidir. Tələbələr bölgələr üzrə müxtəlif müəssisələrdə istehsalat təcrübəsində olurlar. Saatlı rayonunda "Aqrarco" MMC, Şəmkir rayonunda M.Musayev adına təsərrüfat, İsmayıllı rayonunda "AzzaAqro" QSC, Neftçala rayonunda "Qaraqaşlı Broyler" ASC, Ucar rayonunda "Müsüslü Quşçuluq Damazlıq" təsərrüfatı tələbələrin nəzəri biliklərinin təcrübədə zənginləşdirilməsində böyük rol oynayır.

Universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi bu gün də uğurla davam etdirilir. Uzun illər baxımsızlıqdan bərbad hala düşmüş tədris-təcrübə təsərrüfatı əsaslı şəkildə yenidən qurulmuşdur. Qısa müddət ərzində xarici ölkələrdən 30 baş iribuynuzlu damazlıq heyvan gətirilmiş, təcrübə sahələrindən 40 ton arpa, 5,4 ton buğda və 3 ton qarğıdalı yığılmışdır. Mövcud üzüm bağından isə xeyli üzüm toplanmışdır. Təsərrüfatda heyvanları gündəlik yaşıl yemlə təmin etmək üçün 2 hektarda yonca səpini aparılmışdır. Bütün bu işlər isə universitetin maşın-traktor parkında olan texnikaların vasitəsilə həyata keçirilmişdir.

Respublikamızda kənd təsərrüfatı kadrları hazırlayan bu yeganə təhsil ocağında yaradılan şəraitin nəticəsidir ki, tələbələr həm tədris prosesində, həm də imtahan sessiyasında heç bir çətinliklə üzləşmirlər. Hazırda universitetdə payız imtahan sessiyası keçirilir. Ümumiyyətlə, payız və yaz semestr imtahan sessiyalarının təşkili bir qayda olaraq universitet rektorunun əmri ilə həyata keçirilir. Həmin əmrə əsasən "qaynar xətt" yaradılır, apelyasiya komissiyası fəaliyyət göstərir. Şəffaflığın, obyektivliyin və digər məsələlərin təmin edilməsi üçün müvafiq struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilir. Kütləvi informasiya vasitələri nümayəndələrindən və valideynlərdən ibarət nəzarət qrupu yaradılır. İmtahan başlamazdan əvvəl isə fakültə dekanlarının, kafedra müdirlərinin, akademik məsləhətçilərin, eləcə də aidiyyəti struktur bölmələri rəhbərlərinin iştirakı ilə geniş iclas keçirilir. İmtahan sessiyasının nəticələrinə görə yüksək göstəriciləri olan tələbələrə büdcədənkənar vəsait hesabına stimullaşdırıcı təqaüdlərin verilməsi də təhsilin keyfiyyətinə müsbət təsir göstərir.

Hazırda respublikamızın digər ali təhsil müəssisələrində olduğu kimi, Azərbaycan Dövlət Aqrar Universitetində də payız imtahan sessiyası uğurla davam edir. Universitetin tədrisə nəzarət komissiyasının sədri Arif Qazıyevlə birlikdə bir neçə fakültənin imtahanlarını izlədik. Şəffaflığın və obyektivliyin qorunması ilə əlaqədar tələbələrlə görüşdük və onların fikirlərini öyrəndik. Elektrik mühəndisliyi fakültəsinin 4-cü kurs tələbələri Nicat Abdullayev və Müslüm Əhmədov, aqronomluq fakültəsinin 3-cü kurs tələbəsi Leyla Əlizadə imtahanların olduqca obyektiv keçirildiyini qeyd etdilər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Zəhmətin şirin bəhrəsi

*Əvvəli 1-ci səh.*

Hazırda Goranboy şəhərinin Civəzadə küçəsində qəzalı vəziyyətdə olan binaların sakinləri üçün tikilən beşmərtəbəli, 40 mənzilli yaşayış binasında son tamamlama işləri görülür. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 700 şagird yerlik şəhər 1 nömrəli tam orta məktəb üçün yeni binanın tikintisinə başlanılmışdır. Məktəbin cari dərs ilində istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Rayon sakinlərinin məşğulluğunun təminatı məqsədilə həyata keçirilən tədbirlər də öz bəhrəsini vermişdir. Nəticədə keçən il 610 nəfər daimi işlə təmin olunmuş, 345 nəfər üçün müvəqqəti iş yeri yaradılmışdır. Prezident İlham Əliyevin regionlara investisiya qoyuluşunun cəlb edilməsi, sənaye zonalarının yaradılması və əhalinin məşğulluğunun təmin edilməsi ilə bağlı verdiyi tapşırıqlara uyğun olaraq rayonun Qızılhacılı qəsəbəsi ərazisində fəaliyyətə başlamış "Kaskad-Aqro" MMC-yə məxsus istixanada hazırda 70 nəfər rayon sakini işlə təmin olunmuşdur. İllik istehsal gücü 1500 ton olan istixanada yetişdirilən məhsullar əsasən xarici ölkələrə göndərilir.

Goranboylular cari ildə də yüksək göstəricilər əldə etmək üçün yorulmaq bilmədən çalışırlar. Bilirlər ki, bu gün çəkdikləri zəhmət payızda öz bəhrəsini verəcək.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***





# DÜNYA



SOS

# Çindən ölümcül virus

## Dünya təlaş içindədir



**Yeni il başlayar-başlamaz bəşəriyyət daha bir təhlükə ilə üz-üzə qalmışdır: Çində ölümcül sətəlcəm yayılmağa başlamışdır. Ötən ayın 31-də Çinin Hubey əyalətinin inzibati mərkəzinin - Uhan şəhərinin hakimiyyət orqanları sətəlcəmin mənşəyi məlum olmayan növünün yayılması barədə məlumat vermişdir.**

O vaxt xəstəliyə 27 yoluxma halı qeydə alınmışdı. Xəstələnənlərin əksəriyyəti şəhərdəki dəniz məhsulları və heyvanların (yarasa, toyuq, dovşan, ilan) topdan satışı bazarı ilə əlaqəli idi. Yerli virusoloqlar güman edirlər ki, xəstəlik həmin bazarda satılan ilanlardan qaynaqlanmışdır. Ölümcül virusun daşıyıcısının yarasa olduğunu ehtimal edənlər də var.

Ölümcül sətəlcəmdən indiyədək 26 nəfər vəfat etmişdir. Ölüm hallarının ikisi xəstəliyin ilkin yayıldığı bölgədən kənarda - Hebey əyalətində və Sunxua şəhərində (Heyluntszyan əyaləti) qeydə alınmışdır. Çində 876 nəfər xəstəliyə yoluxmuşdur. Xəstələnənlərin əksəriyyəti Uhan şəhərindəndir. Həmçinin paytaxt Pekində, Quandun əyalətində, Şanxay, Honq Konq və Tayvanda adamlar ölümcül xəstəliyə yoluxmuşlar. Dünən səhərə olan məlumata görə, xəstələrin 177-nin vəziyyəti ağırdır, 34 nəfər müalicə olunub səhiyyə müəssisələrindən çıxmışdır. Həmçinin 1072 nəfərdə xəstəliyə yoluxma ehtimalı qeydə alınmışdır. Başqa ölkələrdə - Tailand, Yaponiya, Sinqapur, Vyetnam, Cənubi Koreya və ABŞ-da da xəstəliyə yoluxma halları qeydə alınmışdır. Məlumata görə, bütün xəstələr bundan əvvəl Uhanda olmuşdular. Filippində sətəlcəmi xatırladan əlamətlər aşkarlanmışdır. Finlandiyada iki çinli turist yeni koronavirusa yoluxma şübhəsi ilə xəstəxanaya yerləşdirilmişdir. Turistlər bundan əvvəl Norveçdə olmuşdular. Böyük Britaniyada həkimlər yeni tipli koronavirusa yoluxma şübhəsi ilə doqquz nəfəri müayinə edirlər, daha beş nəfərin analizləri mənfi nəticə vermişdir.

Cari ayın 9-da çinli epidemioloqlar müəyyənləşdirmişlər ki, Uhan şəhərində sətəlcəmin yayılmasının törədicisi yeni tipli koronavirusdur (2019-nCoV). Yerli səhiyyə orqanlarının verdiyi məlumata görə, yeni xəstəliyin əsas əlamətləri yüksək temperatur və öksürəkdir. Xəstələnənlərin əksəriyyəti kişilərdir. Yaşlı adamlarda xəstəliyin ağırlaşması riski xüsusilə yüksəkdir. Ölənlərin yaşı 48-dən 89-a qədərdir. Virusun yayılmasının bütün kanalları hələlik müəyyən edilməmişdir.

Yeni xəstəlik yayılmağa başlayanda onun insandan-insana keçib-keçməməsi məlum deyildi. Yanvarın 20-də aydın olmuşdur ki, virus insandan-insana keçir. Çin səhiyyə orqanları məlumat vermişdir ki, xəstələrə yardım göstərən minimum 14 tibb işçisi yeni sətəlcəmə yoluxmuşdur.

Dünya Səhiyyə Təşkilatı (DST) bəyan etmişdir ki, 2019-nCoV koronavirusunun əsas təhlükəsi onun insanda ölümcül xəstəliyə yol açmasıdır. Hazırda yeni sətəlcəmin hansısa xüsusi müalicəsi yoxdur. Başqa virus xəstəlikləri zamanı istifadə edilən antivirus vasitələri tətbiq olunur. DST xəstəliyin Çində və digər ölkələrdə yayılacağını istisna etmir.

Yeni yayılan xəstəliyin müalicəsi mümkün olmadığından virusa yoluxmamaq üçün görülən qabaqlayıcı tədbirlər ön plana çıxır. DST dünya ölkələrini yeni sətəlcəmin yayılması ilə əlaqədar əsaslı epidemioloji monitorinq keçirməyə çağırmışdır. Mütəxəssislər tövsiyə edirlər ki, koronavirusa yoluxmamaq üçün Uhana səfərdən vaz keçmək, zooparklara və heyvanların iştirakı ilə keçirilən tədbirlərə qatılmamaq, yalnız butulka suyu içmək, adamların kütləvi şəkildə toplaşdığı yerlərdən qayıtdıqdan sonra və yemək yeməzdən qabaq əlləri yumaq, xəstəliyin ilk əlamətləri aşkara çıxanda dərhal həkimə müraciət etmək zəruridir.

Çin hökuməti yeni koronavirusun "vətən"ini - 11 milyonluq Uhanı artıq təcrid etmişdir. 12 milyonluq şəhərdə ictimai nəqliyyatın işi müvəqqəti olaraq dayandırılmış, hava limanı, vağzallar, bazarlar və zoopark bağlanmışdır. Sakinlərə elə bir ciddi səbəb olmadan şəhərdən çıxmamaq tövsiyə olunmuşdur. Uhanda yeni tipli sətəlcəmlə mübarizə üzrə mənzil-qərargah yaradılmışdır. Şəhərdə səkkiz təcili müdaxilə qrupu, xəstələr üçün doqquz xüsusi xəstəxana və ekspert tibbi qrupu təşkil olunmuşdur. Son məlumata görə, Hubey əyalətində daha doqquz şəhər - Çibi (534 min nəfər), Eçjou (1,08 milyon), Huanqan (7,5 milyon), Syantao (1,6 milyon), Çjitszyan (550 min), Tsyantszyan (963 min), Huanşi (2,7 milyon), Enşi (809 min) və Syanin (2,5 milyon) bağlanmışdır. Bu yaşayış məntəqələrində ictimai nəqliyyat bu və ya digər dərəcədə hərəkət etmir.

Bununla yanaşı, dünya dövlətləri xəstəliyin öz ərazilərində yayılmaması üçün təcili tədbirlər görür. Ayrı-ayrı ölkələrin beynəlxalq hava limanlarında Çindən, həmçinin Tailanddan gələn aviareyslərə nəzarət gücləndirilmişdir. Sərnişinlər gücləndirilmiş epidemioloji nəzarətdən keçirlər. Uçuş zamanı onların əhvalını bort bələdçiləri də müşahidə edirlər. Rusiya bütün sərhədlərində sanitar-karantin nəzarətini gücləndirmişdir. Sərhəddə əlavə nəzarət tədbirlərini Hindistan, Yaponiya, Sinqapur, Tailand, Malayziya, Cənubi Koreya, Kanada, Türkiyə, Serbiya və digər ölkələr də görür.

Ekspertlər hesab edirlər ki, tezliklə diaqnostik vasitələr hazırlanıb tətbiq olunsa və əhali xəstəlik barədə məlumatlandırılsa, koronavirusun yayılmasını altı ay ərzində dayandırmaq mümkün olacaq. Həmçinin yeni xəstəliyi müalicə etmək üçün vaksin ən tezi altı aydan sonra ortaya çıxa bilər. Hazırda ABŞ və Rusiya mütəxəssisləri bu istiqamətdə iş aparırlar.

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***

Sağlamlıq

# Qadınlar kişilərdən iki il çox yaşayırlar

Qadınlar kişilərdən çox yaşayır və bu fərq orta hesabla iki il təşkil edir. Bu qənaətə Cənubi Danimarka Universitetinin və Qröningen Universitetinin alimləri gəlmişlər.



"The Conversation" qəzetinin xəbərinə görə, ekspertlər 1950-2015-ci illərdə Şimali Amerika, Avropa və Okeaniyadakı imkanlı təbəqələrə aid 50-85 yaşlı kişi və qadınların iştirakı ilə keçirilmiş tədqiqatın nəticələrini öyrənmişlər. Məlum olmuşdur ki, kişilərin ömrünün az olmasının əsas səbəbi siqaret çəkməkdir. Belə ki, kişilər qadınlarla müqayisədə daha erkən yaşlarından tütündən istifadə etməyə başlayır və daha çox siqaret çəkirlər.

Eyni zamanda müəyyən edilmişdir ki, 1950-ci ildə kişilərlə qadınlar arasında ömür uzunluğunun fərqi 2,5 il, 1980-ci ildə isə təxminən 4 il təşkil etmişdir. 2015-ci ildə bu fərq azalmış və təxminən 2 il olmuşdur.

Alimlərin dediyinə görə, hazırda fərq əvvəlki kimi qalır. Lakin siqaretdən ölüm halları kişilər arasında daha az olur. Əksinə, əvvəllər siqaret çəkmiş yaşlı qadınlarda ölüm hallarının sayı artmışdır.

Sanksiya

# Vaşinqton İrana qarşı sanksiyaları genişləndirdi



ABŞ Maliyyə Nazirliyinin Xarici aktivlərə nəzarət idarəsinin (OFAC) mətbuat xidmətindən verilən məlumata görə, Vaşinqton İran İslam Respublikası ilə əlaqəli iki fiziki şəxsi və altı şirkəti sanksiya siyahısına daxil etmişdir.

Məhdudiyyətlər "Triliance Petrochemical" şirkəti ilə əlaqəsi olan İran vətəndaşı Əli Bayandoryana və "Shandong Qiwangwa Petrochemical Co." şirkəti ilə işləyən Çin vətəndaşı Çji Tsinvanqa şamil edilmişdir. Adıçəkilən şirkətlər "qara siyahı"da yer almışdır.

Bundan əlavə, məhdudlaşdırıcı tədbirlər Birləşmiş Ərəb Əmirliklərinin "Beneathco DMCC" və daha üç Çin şirkətinə - "Jiaxiang İndustry Hong Kong Limited", "Peaktiew İndustry Co. Limited", "Sage Energy HK Limited"ə qarşı tətbiq edilmişdir. ABŞ Maliyyə Nazirliyi iddia edir ki, bu şirkətlərin İran neftinin qanunsuz ixracında əli var.

Brexit

# AİŞ və AK-ın sədrləri Brexit sazişini imzaladılar



**Avropa İttifaqı Şurasının (AİŞ) sədri Şarl Mişel və Avropa Komissiyasının (AK) başçısı Ursula fon der Lyayen Böyük Britaniyanın Avropa İttifaqından çıxması (Brexit) şərtləri barədə sazişi imzalamışlar. Bu barədə "Röyter" agentliyi xəbər verir.**

Bundan əvvəl Avropa Parlamentinin Konstitusiya məsələləri komitəsi səs çoxluğu ilə sazişi qəbul etmişdir.

Sənəd imzalandıqdan sonra Mişel Twitterdəki səhifəsində yazmışdır: "Mən Ursula fon der Lyayenlə birlikdə Böyük Britaniyanın Avropa İttifaqından çıxması barədə sazişi imzaladım. Bəzi şeylərin dəyişəcəyi qaçılmazdır, lakin bizim dostluğumuz qalacaq. Biz tərəfdaşlar və müttəfiqlər kimi yeni səhifə açırıq".

Avropa Parlamenti yanvarın 29-da Brexiti səsə qoyacaq. Bundan sonra tərəflər ratifikasiya sənədlərini mübadilə edəcəklər.

Yanvarın 31-də Böyük Britaniya Avropa İttifaqını tərk edəcək. Lakin cari ilin sonunadək heç nə dəyişməyəcək: dekabradək davam edəcək keçid dövrü ərzində tərəflər gələcək münasibətlər barədə danışıqlar aparacaqlar.

Ekologiya

# Avropalı alimlər torpağa həyat verirlər

**Bir qrup avropalı alim İspaniya ilə Portuqaliya arasında sərhədyanı zonada üzvi kompost (bitki və heyvan tullantılarından hazırlanan üzvi gübrə) və texnogen torpağın (süni yaradılmış torpaq qatqıları) köməyi ilə ərazinin sağlamlaşdırılması üzərində işləyir.**



Artıq əldə olunmuş nəticələr, xüsusilə köhnə mis mədəninin yaxınlığında atılmış torpaqların dirçəlməsi xoş təəssürat yaradır. Professor Felippe Masiasvaskesin dediyinə görə, "burada nə ot, nə də bir kol bitirdi. Hazırkı otlar isə texnogen torpaqda bitirilmişdir". Alimlər qarşılarına qoyduqları məqsədə - ağacların bitməsinə, təbiətin yenidən oyanmasına nail ola bilmişlər.

Avropanın "Res2Valhum" layihəsi Portuqaliyanın üç, İspaniyanın dörd şəhərini birləşdirir. Layihə yeddi tərəfdaş təşkilatın qüvvəsi ilə həyata keçirilir. Bunlar texnogen torpaq, yaxud üzvi kompost istehsal edən beş şirkət və iki universitet laboratoriyasıdır. Proqramın ümumi büdcəsi 2 milyon avrodan çoxdur.

Santyaqo-de-Kompostela Universitetinin laboratoriyasında tədqiqatçılar kompostu müxtəlif qrup üzvi tullantılardan - məişət tullantısı, peyin və yosundan hazırlayırlar. Nəticələr alimləri ruhlandırır: kompost əldən düşmüş torpaq sahələrinə həyat verməyə qadirdir.

Proqramın əlaqələndiricisi Sara Lopes deyir: "Məsələn, biz sahilə atılmış yosunu yığırıq. Çoxları bunun heç nəyə lazım olmadığını fikirləşirlər. Lakin bu, belə deyil. Yosun kompostun tərkibində vacib qida elementinə çevrilərək ikinci həyatını qazanır".

Layihənin iştirakçıları tədqiqat və eksperimentlərin nəticələrini mübadilə edirlər. Portuqaliyanın "Lipor" qrupu Portudan və yaxınlıqdakı yaşayış məntəqələrindən daxil olan tullantıların toplanması və emalı ilə məşğul olur. Onu digər inqrediyentlərlə qarışdırırlar və alınan kompost yeraltı anbarlarda tam "yetişir". Müəssisə ildə 12 min tonadək kompost hazırlayır.

Mühəndis Susanna Lopeş diqqəti müvafiq avadanlığın olmasının əhəmiyyətinə yönəldir. O bildirir ki, lazımi avadanlıq üzvi tullantıları bərpa etməyə və sonradan torpağa qaytarmağa imkan yaradır. Bu cür kompost həm də karbonu udmağa qadirdir.

Bu sərhədyanı regionun mütəxəssisləri hesab edirlər ki, tullantıların diqqətlə sortlaşdırılması və düzgün emalı əldən düşmüş torpaqlara həyat gücünü qaytarmağa imkan verəcək.

İqlim dəyişikliyi

**İsveçrənin Davos şəhərində 50-ci Dünya İqtisadi Forumu isveçrəli iqlim fəalı, 17 yaşlı Qreta Tunberq dünya liderləri qarşısında çıxışı ilə yadda qaldı. Beynəlxalq ekoloji hərəkatın liderlərindən biri olan bu məktəbli keçən il də foruma qatılmış, dünya ölkələrinin hökumətlərini planetin gələcəyini təmin etməyə çağırmışdı.**




# Tunberq yenə Davosda idi...

## *İsveçli fəal:* "Planeti xilas etmək üçün bəşəriyyətin az vaxtı qalıb"

O, bu dəfə də beynəlxalq ictimaiyyətin diqqətini qlobal fəlakətə - iqlim dəyişikliyinə yönəltdi.

Tunberq bəşər sivilizasiyasını təhdid edən fəlakəti nəzərə alaraq insanları iqlim böhranına real böhran kimi yanaşmağa çağırdı. O qeyd etdi ki, iqlim dəyişikliyinin ciddi təhlükəyə çevrilməsinə baxmayaraq, $CO_2$ tullantılarının atmosferə atılmasını azaltmaq üçün hələ heç bir iş görülməyib. İsveçrəli qızın çağırışı konkret məzmunda idi: "Alimlərə qulaq asın və elə indi hərəkətə keçin".

Məktəbli xəbərdarlıq edirdi: "Demək olar ki, heç nə edilməyib. Dünyada $CO_2$ tullantıları azalmayıb, hərçənd biz məhz buna nail olmağa çalışırıq... Amma bir tərəfdən, çoxlu hadisələr baş verib: problemin dərki artıb, iqlim hərəkatı başlayıb. İndi iqlim və ətraf mühit daha çox gənclər sayəsində əsas mövzu olub". Onun dediyinə görə, problemin dərk edilməsi hələlik konkret fəaliyyətə çevrilməmişdir, hərçənd "planeti xilas etmək üçün bəşəriyyətin səkkiz ildən az vaxtı qalıb".

Tunberq Davosda insanlara müraciət edərək həyəcan təbili çalırdı: "Niyə istiləşməni 1,5 dərəcədən aşağı səviyyədə saxlamaq bu qədər vacibdir? Axı planetin temperaturu 1 dərəcə artanda da insanlar iqlim dəyişikliyindən ölürlər. İqlimdə sabitliyin pozulmasından və dönməz zəncirvari reaksiyalardan qaçmaq lazımdır. Elm bunu tələb edir".

Qızcığazın Davosda iqlim dəyişikliyinə münasibətdə sərgilədiyi haqlı mövqe heç də hamını razı salmadı. Atmosferi ən çox çirkləndirən və iqlim dəyişikliyi problemini beynəlxalq ictimaiyyətlə birgə həll etməyi lazım bilməyən ölkənin - ABŞ-ın lideri Donald Tramp növbəti dəfə isveçli ekofəala gözlənilən sərt reaksiya verdi. Tramp dedi ki, Tunberq sadəcə olaraq çox hirslidir, ardınca əlavə etdi ki, onun haqqında heç nə bilmir.

Amma ABŞ Prezidenti isveçli məktəblini tanımaya bilməzdi. Tunberq keçən il Davos İqtisadi Forumunda çıxış edərkən bildirmişdi ki, dünya liderlərinin fəaliyyətsizliyi üzündən dünya od içindədir, çünki liderlər yalnız pul barədə düşünürlər. Yeniyetmə dünyanın taleyini həll edən siyasətçiləri nəzərdə tutaraq soruşurdu: onlar uşaqlarına qəsdən qoyub getdikləri iqlim xaosunu necə izah edəcəklər? Elə ötən ay Tunberq "Time" jurnalının versiyası ilə "İlin adamı" elan olunanda Tramp çılğına dönmüşdü. O vaxt ABŞ lideri Twitterdə yazmışdı: "Sadəcə olaraq cəfəngiyyatdır! Qreta öz qəzəbi üzərində işləməli, sonra isə dostu ilə kinoya getməlidir. Sakit ol, Qreta, sakit ol!"

Bütün bunlara baxmayaraq, Tunberq və onun həmfikirləri sakitləşə bilməzlər. İqlim dəyişikliyi mənfi fəsadlarını get-gedə daha qabarıq şəkildə göstərir. Nəhəng buzlaqlar əriməkdə, dünya okeanının səviyyəsi qalxmaqda davam edir, bərqərar olmuş ekosistemlər pozulur. Bəşəriyyəti təhdid edən fəlakətdən qazanc əldə etmək barədə düşünənlər də var. Belə bir şəraitdə Tunberqlər necə sussunlar?

Soyqırımı

# Beynəlxalq məhkəmə arakanlı müsəlmanlara dəstək verdi

BMT-nin Beynəlxalq Məhkəməsi Myanma hökumətindən Arakan bölgəsində yaşayan müsəlmanların təqibini dayandırmağı tələb etmişdir. Məhkəmənin qərarı icra üçün hüquqi cəhətdən məcburidir və Myanmanın üzərinə beynəlxalq hüquqi məsuliyyət qoyur.




Müvafiq hökmü məhkəmənin sədri Abdulkavi Əhməd Yusuf səsləndirmişdir: "Myanma soyqırımı cinayətinin qarşısının alınması barədə Konvensiyanın 2-ci maddəsində göstərilən hərəkətlərin qarşısının alınması üçün bütün mümkün tədbirləri həyata keçirməlidir".

Məhkəmə araşdırması ötən il noyabrın 11-də İslam Əməkdaşlıq Təşkilatı adından Qambiya tərəfindən verilmiş iddia əsasında başlamışdır.

Beynəlxalq Məhkəmənin hakimləri Myanma hökumətindən görülən tədbirlər barədə dörd aydan bir məlumat verməyi tələb etmişlər.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Yanvarın 24-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Sumqayıtda, nazirin birinci müavini Əli Abdullayev Xırdalanda vətəndaşlarla görüşüb.

Nazir Sumqayıt və Xızı, nazirin birinci müavini isə Abşeron sakinlərini qəbul edib. Vətəndaşlar tərəfindən əsasən nəqliyyat, telekommunikasiya, informasiya texnologiyaları və poçt rabitəsi ilə bağlı müraciətlər səsləndirilib.

Müraciətlərin bir qismi yerindəcə həll olunub, digərləri araşdırılması üçün nəzarətə götürülüb. Araşdırılması tələb olunan müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ həlli ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı isə vətəndaşlara müvafiq izahatlar verilib, onlara həmin müraciətlərin aidiyyəti strukturlara göndəriləcəyi bildirilib.

* * *

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Salyan rayonunda həmin rayonun sakinlərini fərdi qaydada qəbul edib. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, vətəndaşlarla görüş zamanı nazir Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin nəticəsi olaraq sosial sahədə aparılan islahatlar, pensiya və müavinətlərin, təqaüdlərin ciddi şəkildə artırılması, reabilitasiya və sosial xidmət sisteminin müasirləşdirilməsi və genişləndirilməsi sahəsində görülən işlər barədə məlumat verib. O, eyni zamanda, 2020-ci ildə sosial sahədə aparılacaq islahatları qeyd edib, sosial inkişaf sahəsində əldə olunan uğurların qarşıdakı dövrdə də davam edəcəyini vurğulayıb.

Qəbul zamanı vətəndaşların sosial təminat növləri üzrə hüququn müəyyən edilməsi, məşğulluğun təminatı, özünüməşğulluq və peşə hazırlığı proqramlarına, bərpa müalicəsinə cəlb olunma, əlilliyin qiymətləndirilməsi, reabilitasiya vasitələri ilə təminat, əmək hüquqlarının müdafiəsi və s. məsələlərlə bağlı müraciətləri dinlənilib. Müraciətlərdə qaldırılan bir sıra məsələlərin həlli ilə əlaqədar yerindəcə tədbirlər görülüb. Ayrı-ayrı vətəndaşların aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına, reabilitasiya xidmətlərinə cəlb olunması, sosial xidmətlərlə təmin edilməsi və s. tapşırılıb. Sorğu xarakterli müraciətlərlə bağlı ətraflı izahatlar verilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov Cəlilabad rayonunda həmin rayonun, nazir müavini Vüsal Nəsirli isə Biləsuvar rayonunda Biləsuvar və Cəbrayıl rayonlarının sakinlərini fərdi qaydada qəbul ediblər.

* * *

Yanvarın 24-də Energetika naziri Pərviz Şahbazov Siyəzən şəhərində, nazir müavini Samir Vəliyev Qobustanda, nazir müavini Elnur Soltanov isə Cəlilabadda vətəndaşları qəbul edib.

Energetika Nazirliyindən bildirilib ki, vətəndaşların qəbulu zamanı səsləndirilən müraciətlər yeni elektrik xətlərinin çəkilməsi, elektrik dirəklərinin qəzalı vəziyyəti, elektrik enerjisindən istifadəyə görə köhnə borcların silinməsi, elektrik qurğu və avadanlıqlarının yararsız halda olması, elektrik və qaz sayğaclarının quraşdırılması, təbii qaz təchizatı və digər məsələləri əhatə edib. Qəbullarda vətəndaşların müraciətləri dinlənilib və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün tapşırıqlar verilib.

Qəbul zamanı Şabran və Xaçmaz rayonlarından gələn vətəndaşların da müraciətləri dinlənilib və həlli üçün lazımi göstərişlər verilib. Qəbullarda 17 vətəndaşın müraciətinə baxılıb.

* * *

Yanvarın 24-də Səhiyyə naziri Oqtay Şirəliyev qəbul cədvəlinə uyğun olaraq Ucar Rayon Mərkəzi Xəstəxanasında Ucar və Göyçay rayon sakinlərini qəbul edib.

Vətəndaşların sağlamlıq problemləri, işlə təminat və sair məsələlərlə bağlı şikayət və müraciətləri dinlənilib.

Müraciətlərdə qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb, onların bəziləri yerində həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

* * *

Yanvarın 24-də Təhsil nazirinin müavini Firudin Qurbanov Biləsuvar şəhərindəki Heydər Əliyev Mərkəzində Neftçala və Biləsuvar rayonlarının sakinlərini qəbul edib.

Qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil Nazirliyindən bildiriblər ki, qəbulda F.Qurbanov vətəndaşların müraciət və təkliflərini dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən işlə təmin olunma, müəllimlərin yerdəyişməsi, dərs saatlarının artırılması və digər məsələlərlə bağlı müraciət ediblər.

* * *

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) rəhbərliyi Şirvan və Kürdəmirdə vətəndaşları qəbul edib.

AAYDA-dan bildirilib ki, agentliyin idarə heyətinin sədri Saleh Məmmədov Şirvan şəhərində vətəndaşları qəbul edib. "Gənclər evi"ndə keçirilən qəbulda Şirvan şəhəri və Hacıqabul rayonundan olan vətəndaşların müraciət və şikayətlərinə baxılıb.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyəti sədrinin müavini Əvəz Qocayev isə Kürdəmir rayonunda vətəndaşları qəbul edib. Qəbuldan öncə AAYDA-nın idarə heyəti sədrinin müavini Əvəz Qocayev və Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək onun xatirəsini ehtiramla yad ediblər. Heydər Əliyev Mərkəzində keçirilən qəbul zamanı sözügedən rayondan olan vətəndaşların müraciətinə baxılıb.

Hər iki qəbul zamanı müraciətlər əsasən kəndlərarası avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilərək şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

* * *

Yanvarın 24-də "Azəriqaz" İstehsalat Birliyinin rəhbərliyi şimal bölgəsindən olan vətəndaşlarla görüşüb. "Azəriqaz"ın baş direktoru Ruslan Əliyev Xaçmaz Regional Qaz İstismarı İdarəsinin inzibati binasında rayon sakinlərinin müraciətlərini dinləyib. Qəbula gələn sakinlərin əksəriyyəti yaşayış məntəqələrinin qazlaşdırılması, qaz xətlərinin yerinin dəyişdirilməsi, işə qəbul və müxtəlif məsələlərlə bağlı fikirlər səsləndiriblər. Hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib. Qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib. Birliyin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə müvafiq orqanlara çatdırılması üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

Eyni vaxtda "Azəriqaz" İB-nin baş direktorunun müavinləri Ramil İskəndərov və Cahid Hüseynov müvafiq olaraq Siyəzən və Xızı rayonlarında vətəndaşların müraciətlərini dinləyiblər.

* * *

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev yanvarın 24-də Sabirabad rayonunda məcburi köçkünləri qəbul edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən bildiriblər ki, qəbulda Sabirabadda müvəqqəti məskunlaşmış məcburi köçkünlər iştirak ediblər.

Qəbul zamanı müraciətlər, əsasən, dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, vahid aylıq müavinətin təyin edilməsi və məşğulluq məsələləri ilə bağlı olub.

Qəbulda məcburi köçkünlərin qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Digər məsələlərin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov isə Saatlı rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkünlərlə görüşüb.

*AZƏRTAC*

# İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun 110 illik yubileyinə həsr olunan tədbir keçirilib



Azərbaycan Respublikasının Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, "N" saylı hərbi hissəsində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyinə həsr edilən tədbir keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Çıxış edənlər iki dəfə Sovet İttifaqı Qəhrəmanının şərəfli döyüş yolundan danışaraq Həzi Aslanovun Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdən biri olduğunu qeyd ediblər. Qəhrəmanın hərbi xidmətlərindən söhbət açılıb və görkəmli sərkərdənin ömür yolunun hər bir gənc üçün dəyərli nümunə olduğu bildirilib.

Mərasimdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Həzi Aslanovun hərb tariximizdə müstəsna rol oynadığını dəfələrlə qeyd etməsi və qəhrəmanın adının əbədiləşdirilməsi üçün bir çox sərəncamlar imzalaması bir daha xatırlanıb. Bu ənənənin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən davam etdirildiyi də xüsusi vurğulanıb.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin musiqi proqramı ilə sona çatıb.



## Göyçay şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2020-ci il üçün kotirovka sorğusu elan edir

1. Dəftərxana ləvazimatı
2. Digər malların alınması
3. Tikili və avadanlıqların cari təmiri
4. Yumşaq inventar
5. Enerji xətlərinin təmiri
6. İstilik enerji (yanacaq) haqqının alınması
7. İstehlak yönümlü müxtəlif xərclər
8. Maşın və avadanlıqlar

**Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07 fevral 2020-ci il saat 16:00-dək qəbul olunur.**
**Maraqlanan təşkilatlar (020) 27 4-12-29 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.**

*Tender komissiyası*

## İmişli Suvarma Sistemləri İdarəsi
## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 31.12.2020-ci il tarixinə kimidir.

Maraqlananlar tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Möhübbət İsməli oğlu Məmmədov.
Ünvan: İmişli rayonu, Qaradonlu kəndi
E-mail: suleymanli.1987@mail.ru
Tel: 050 559-81-09

Tender 2 (iki) LOT üzrə keçiriləcək.

**LOT 1 - Əsaslı və cari təmir üçün mal-materialların satın alınması**

**LOT 2 - Maşın-mexanizmlər, mexaniki avadanlıq və nəqliyyat vasitələrinin cari təmiri üçün ehtiyat hissələrinin satın alınması**

Maraqlananlar tenderin əsas şərtlər toplusunu (əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba hər LOT üzrə 100 (bir yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**İmişli Suvarma Sistemləri İdarəsi**
**VÖEN: 5500142121**
**İmişli YXO**
**VÖEN: 5500116521**
**H/h: AZ49AİİB32051019446700201167**
**Bank: "Kapital Bank"ın İmişli filalı**
**VÖEN: 9900003611**
**Kod: 200673**
**M/h: AZ81NABZ01350100000003001944 (XÖHKS)**
**S.W.İ.F.T: BİK AİİBAZ 2x**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədəolma müddəti tender təklifinin qüvvədəolma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
*- Sosial Müdafiə Fondu tərəfindən fonda borcu olub-olmaması barədə arayış;*
*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **13.02.2020-ci il saat 15:00-a** qədər Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **21.02.2020-ci il saat 15:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifi zərfləri **24.02.2020-ci il saat 15:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

*Tender komissiyası*

## Şəki Subartezian Quyularının İstismarı İdarəsi 2020-ci ildə istismar tədbirləri üçün mal-materialların satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender 3 LOT üzrə keçirilir:
**LOT 1 - Cari təmir işləri üçün mal-materialların satın alınması**
**LOT 2 - Mexanizmlər və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması**
**LOT 3 - Elektrik avadanlıqlarının təmiri üçün mal-materialların satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təşkilatların qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:
- Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər bir LOT üzrə 80 (səksən) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Şəki rayonu, Qoxmuq kəndi Şəki Subartezian Quyularının İstismarı İdarəsi (əlaqələndirici şəxs: Seyran İsmət oğlu Məmmədov, telefon: (024) 245-92-65) ünvanından ala bilərlər.

**Hesab: AZ03AİİB32051019447000201170**
**VÖEN: 3000184841**
**Bank: "Kapital Bank"ın Şəki filialı**
**Kodu: 200703**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AİİBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **17 fevral 2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **25 fevral 2020-ci il saat 18:00-a** qədər Şəki rayonu, Qoxmuq kəndi Şəki Subartezian Quyularının İstismarı İdarəsi ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **26 fevral 2020-ci il saat 11:00-da** Şəki rayonu, Qoxmuq kəndi Şəki Subartezian Quyularının İstismarı İdarəsi ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*



# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Sarıcalı, Acarlı, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Baş Prokurorluq Nərmin Quliyevanı qəsdən öldürməkdə təqsirləndirilən şəxsin vəkilinin əsassız fikirlərini təkzib edib

Azərbaycan Respublikasının Baş Prokurorluğu 10 yaşlı Nərmin Quliyevanı qəsdən öldürməkdə təqsirləndirilən şəxsin vəkilinin səsləndirdiyi əsassız fikirlərlə bağlı məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, Tovuz rayonunun Dondar Quşçu kənd sakini 10 yaşlı Nərmin Quliyevanı qəsdən öldürməkdə təqsirləndirilən İlkin Süleymanovun vəkili Əlibaba Rzayevin müdafiəçisi olduğu şəxsə istintaq zamanı guya işgəncə verməklə etirafedici məzmunlu ifadə verməyə məcbur edilməsi ilə bağlı səsləndirdiyi fikirlər həqiqəti əks etdirmədiyindən tərəfimizdən qəti şəkildə təkzib olunur.

Belə ki, İ.Süleymanov şübhəli və təqsirləndirilən şəxs qismində müdafiəçinin iştirakı ilə dindirilərkən törətdiyi əməli tam etiraf edib, o cümlədən keçirilmiş prosessual istintaq hərəkətləri zamanı müdafiəçisinin və hal şahidlərinin iştirakı təmin edilib. Bundan başqa, məhkəmə-tibbi ekspertləri tərəfindən müayinə olunarkən, eləcə də 1 saylı istintaq təcridxanasına daxil olarkən İ.Süleymanovun bədənində xəsarət və ya xəsarət izi aşkar edilməyib. İ.Süleymanovun istintaq təcridxanasına daxil olanadək, eləcə də sonrakı dövr ərzində hər hansı işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftara məruz qalması barədə şikayəti daxil olmayıb.

Cinayət işi üzrə intensiv istintaq hərəkətlərinin həyata keçirildiyi bir vaxtda ayrı-ayrı şəxslər tərəfindən heç bir hüquqi əsası olmayan mülahizələrin səsləndirilməsi yolverilməzdir və istintaq araşdırmalarının maraqlarına zidd olaraq ictimaiyyətdə yanlış fikirlərin formalaşmasına xidmət etməklə cinayət işinin istintaqına təzyiq kimi qiymətləndirilir.



## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti



## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfova qardaşı

**FƏXRƏDDİN NƏCƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfova qardaşı

**FƏXRƏDDİN NƏCƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri Şəlalə Məmmədova Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfova qardaşı

**FƏXRƏDDİN NƏCƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsinin kollektivi Füzuli Rayon Məhkəməsinin hakimi Yaşar Həşimova anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfova qardaşı

**FƏXRƏDDİN NƏCƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ənvər Seyidov ailəsi ilə birlikdə Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfova qardaşı

**FƏXRƏDDİN NƏCƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ənvər Seyidov ailəsi ilə birlikdə Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər Məhkəməsinin kollektivi Ali Məhkəmənin Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin müdiri Bəhman Qəribova atası

**FƏRHAD QƏRİBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıtdan Zakir Fərəcov Mahir və Elçin Muradovlara ataları

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin müdiri Bəhman Qəribova atası

**FƏRHAD QƏRİBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Mahir və Elçin Muradovlara ataları

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6855
Sifariş 201
Qiyməti 40 qəpik